# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP nümayəndə heyəti Şimali Kipr Türk Cümhuriyyətinə səfər edib



4

SƏS
№ 127 (7295)
22 iyul 2025-ci il.
Qiymәti 60 qәpik

## Xankəndidən dünyaya açıq mesajlar




2

# Milli mətbuat 150: əsryarımdan ötən 365-lər




5

## Medianın İnkişafı Agentliyi Azərbaycan vətəndaşlarına, jurnalistlərə və ictimai fəallara çağırış edib




7

## DTX xaricdə "Abu Malik" kod adı ilə vətəndaşlarımızı tutduran şəxsi həbs edib



4

## Qlobal su çatışmazlığı güclənir: Bizi nə gözləyir?



10

## "Azərbaycanın Qarabağda keçirdiyi tədbirlərin və uğurların önəmi çox vacibdir"



11

## Şuşadan mühüm MESAJ: hədəf peşəkar və operativ medianın qurulmasıdır!



6






# Xankəndidən dünyaya açıq mesajlar

***“Şuşa Media Forumu artıq ənənəvi xarakter alıb. Ümid edirəm ki, bu adət-ənənə davam edəcək və vaxt keçdikcə qonaqların sayı artır, daha çox coğrafi əhatə var”. Bu fikirləri Prezident İlham Əliyev III Şuşa Qlobal Media Forumunda çıxışında deyib.***

## *Prezident İlham Əliyev: "Milli maraqların müdafiəsi Azərbaycanın siyasətində fundamental amildir"*

**“BUGÜNKÜ GÖRÜŞÜ BURADA, YENİ TİKİLMİŞ KONQRES MƏRKƏZİNDƏ, XANKƏNDİNİN ZƏFƏR MEYDANINDA KEÇİRMƏK QƏRARINA GƏLDİK”**





Dövlətimizin başçısı bildirib ki, bütün bunlar göstərir ki, açıq müzakirələrə böyük ehtiyac var, müzakirələr açıq mühitdə aparılmalıdır: ”Biz nəinki media icmasının gündəliyinə, o cümlədən qlobal gündəliyə aid məsələləri müzakirə etməliyik”.

Şuşa Qlobal Media Forumunun Azərbaycanın mədəniyyət beşiyi olan Şuşada keçirilməsi təsadüfi deyildi. Qarabağın tacı olan bu şəhər Azərbaycanın mədəni və elmi irsinə töhfə verib. Foruma dünyanın müxtəlif ölkələrindən media nümayəndələri və fikir adamları dəvət edilib. Burada müxtəlif ideyalar və yenilikçi baxışlar formalaşır və paylaşılır.

İyulun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xankəndidə ”Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi” mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü keçirilib. Prezident İlham Əliyev Forum iştirakçılarının suallarını cavablandırıb. Forum, əslində, dialoq, şəffaflıq və daimi inkişaf edən media mühitində əməkdaşlığa yönəlib.

Forum 52 ölkədən 140 qonağı, 30-a yaxın informasiya agentliyinin və 80 media qurumunun nümayəndələrini bir araya gətirib. Builki Forum rəqəmsal keçidlər, süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi mövzusuna həsr olunub. Aparılan müzakirələr məhz medianın çağırışlar və imkanlar qarşısında müqavimətinin gücləndirilməsinə, o cümlədən rəqəmsal transformasiyanın təsirinə və müstəqil jurnalistikanın, sülhün, inkişafın, qarşılıqlı anlaşmanın daha da artırılmasına yönəlib.

”Ən mühüm mövzuların mehriban şəraitdə açıq müzakirələrinə böyük ehtiyac var. Söhbət təkcə mediadan deyil, həmçinin qlobal gündəlikdən gedir. Dünyada vəziyyət sürətlə dəyişir. Əgər ötən il Şuşada keçirilmiş Forumdan başlasaq görərik ki, nə qədər çox dəyişikliklər baş verib.

Əlbəttə ki, ilk növbədə, mətbuat belə tədbirlərə qatılır, bütün hekayələri söyləyir, bu dəyişiklikləri, hadisələri təsvir edir və öz cavabını, rəyini bildirir. Bir sözlə, çox məmnunam ki, biz burada - Xankəndidə bu cür böyük tədbirə toplaşmışıq. Bugünkü görüşü burada, yeni tikilmiş Konqres Mərkəzində, Xankəndinin Zəfər meydanında keçirmək qərarına gəldik. Beləliklə, əminəm ki, bura qonaqlar üçün maraqlı olacaq, yenidənqurma, eləcə də 30 ildən artıq bu yerlərdən didərgin düşmüş insanların qayıtması baxımından ərazilər azad olunandan sonra görülmüş işlərə baxmaq cəlbedici olacaq. Bununla şərhimi yekunlaşdırıram ki, müzakirə üçün daha çox vaxt qalsın. Bir daha bizimlə olduğunuz üçün təşəkkür edirəm”, - deyə Azərbaycan Prezidenti bildirib.

**“ÖZ MARAQLARINI NƏZƏRƏ ALANDA, QONŞUNUN DA MARAQLARINA BAXMAQ LAZIMDIR”**

Dövlətimizin başçısı özünü risklərdən qorumaq üçün coğrafiyadan istifadə etməyin vacibliyini də vurğulayıb. ”Azərbaycana gəlincə, ölkəmizdə risklərin daxili mənbələri yoxdur. Bütün potensial risklər bizim sərhədlərimizdən kənarda formalaşa bilər. Ona görə də sürprizlərdən, fəaliyyətinizlə bağlı olmayan bəzi risklərdən qorunmaq da vacib idi və bu işdə coğrafiyanın mühüm rolu olub”, - deyə Prezident İlham Əliyev bildirib.

O, həmçinin qeyd edib ki, uğurlu siyasətin mühüm amili həm Avropa, həm də müsəlman təşkilatlarının üzvü olan, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, ECO və bir çox digərlərinin xətti ilə sammit formatlarında fəal iştirak edən Azərbaycanın nadir ölkələrdən olmasıdır: ”Bu, həm də hər kəs üçün vacibdir: öz maraqlarını nəzərə alanda, qonşunun da maraqlarına baxmaq lazımdır. Milli maraqların müdafiəsi Azərbaycanın siyasətində fundamental amildir, lakin regional və ya qlobal kontekstdən ayrılıqda bu amildən çox sui-istifadə etmək olmaz. Həmişə vəziyyətə baxmaq, şəraitə sənin qonşunun prizmasından nəzər salmağa çalışmaq lazımdır. Onda çox şey aydınlaşa bilər. Belə olan halda anlaşılmazlığa səbəb olan bir çox məsələ kifayət qədər effektiv nizamlanır”.

*Ardı Səh. 3*

Əvvəli-Səh-2

### “BİZƏ SABİTLİK, TƏHLÜKƏSİZLİK LAZIMDIR”

Dövlətimizin başçısı Cənubi Qafqazın sabit məkan olacağını bildirərək, bizə sabitliyin, təhlükəsizliyin lazım olduğunu bildirib: Cənubi Qafqazın əsrlər boyu qan tökülmə, toqquşma, işğal məkanı olduğunu, Qafqaz xalqlarının çox əziyyət çəkdiklərini xatırladan dövlətimizin başçısı qeyd edib: ”Ona görə də kifayətdir. Biz artıq sülh şəraitində yaşamalıyıq”. Azərbaycan Prezidentinə ünvanlanan ”Biz sülh sazişinə nə dərəcədə yaxınıq, nə qədər nikbin ola bilərik?” sualına gəlincə dövlət başçımız bildirib ki, sülh müqaviləsinin mətni artıq razılaşdırılıb. Azərbaycan sülh prosesinin təşəbbüskarıdır. Azərbaycan tərəfi iki dövlət arasında münasibətlərin normallaşması dair Ermənistan tərəfinə baza prinsiplərini təqdim etdikdən sonra, Ermənistan tərəfi sülh danışıqları ilə bağlı Minsk Qrupunun həmsədrlərinə müraciət edib. Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində ölkəmiz tərəfindən atılan addımlara, Ermənistanla sülh müqaviləsi imzalamağa hazır olmağımıza dair ən yüksək səviyyədə edilən bəyanatlara baxmayaraq, ötən müddət ərzində lazımi nəticə əldə olunmayıb.

İki dövlət arasında münasibətlərin normallaşması üçün beş baza prinsipləri əks olunub: Dövlətlərin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması; Dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi; Dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək; Dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması; Nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması.



# Xankəndidən dünyaya açıq mesajlar







İki dövlət məhz bu baza prinsipləri əsasında intensiv, substantiv və nəticəyə yönəlik danışıqlar apararaq ikitərəfli sülh sazişini yekunlaşdıra bilərlər. ”Bu iki məsələ, - Ermənistan konstitusiyasına dəyişiklik və ATƏT-in Minsk qrupunun buraxılması, - həll edilən kimi sülh müqaviləsi imzalana bilər. Bəli, mətn paraflana bilər və Azərbaycan tərəfi artıq Əbu-Dabidə bu təkliflə çıxış edib. Lakin bildiyiniz kimi, paraflanma heç də imzalanma demək deyil. Yəni, biri var ki, tərəflər arasında şifahi razılıq əldə olunur, biri də var ki, tərəflər sənədin hər səhifəsinin sonunda öz imzalarını qoyaraq onu paraflayır. Məncə, biz sülh müqaviləsinin imzalanmasına çox yaxınıq. Hesab edirəm ki, bu proses geridönməz xarakter alıb. Bunun hər hansı bir yenidən baxılması, yenidən baş verməsi mümkün deyil. Biz heç nəyi yenidən müzakirə etməyəcəyik. Ancaq Ermənistan yenidən müzakirəyə başlamağa çalışırsa, o deməkdir ki, onlar sülh istəmirlər. Deməli, o ərazi iddiası qalır. Ona görə də biz düzgün istiqamətdəyik. Onlar öz ev tapşırıqlarını yerinə yetirməlidirlər”, - deyə Azərbaycan Prezidenti bildirib. Dövlət başçımızın sözlərinə görə, bu baş verdiyi halda biz sülh müqaviləsini imzalaya bilərik: ”Bu da region üçün çox böyük yenilik, çox böyük dəyişiklik olacaq və biz artıq bu haqda danışdıq. Cənubi Qafqaz sabitlik məkanı olacaq. Bizə sabitlik, təhlükəsizlik lazımdır. Çünki Cənubi Qafqaz əsrlər boyu qan tökülməsi, toqquşma, işğal məkanı olmuşdur və Qafqaz xalqları çox əziyyət çəkiblər. Ona görə də kifayətdir, biz artıq sülh şəraitində yaşamalıyıq”.

### ”TƏƏSSÜF Kİ, BİZ RUSİYA RƏSMİLƏRİNDƏN HEÇ BİR CAVAB ALMAMIŞIQ”

Prezident İlham Əliyev III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə qəzaya uğrayan AZAL təyyarəsi ilə bağlı sualı da cavablandırıb. Ona ünvanlanan ”AZAL şirkətinə məxsus təyyarəsi ilə bağlı insidentlə əlaqədar Azərbaycanın şərtləri, tələbləri Rusiya tərəfindən qəbul edilibmi?” sualını cavab olaraq belə deyib: ”Təəssüf ki, biz Rusiya rəsmilərindən heç bir cavab almamışıq. Artıq bu hadisədən yeddi ay keçib. Bizim üçün hər şey aydındır, nə baş verdiyini bilirik. Biz bunu sübut edə bilərik və bilirik ki, Rusiya rəsmiləri də məsələdən xəbərdardırlar. Onlar da nə baş verdiyini gözəl bilirlər. Sual olunur: niyə görə onlar analoji halda hər bir qonşunun etməli olduğu hərəkəti etmədi? Bizim tələbimiz təbii idi - Rusiya tərəfi öz günahını etiraf etsin, təyyarəmizi vuranlar cəzalandırılsın, qəzada həlak olmuş və yaralanmış şəxslərin ailələrinə, eləcə də AZAL-ın təyyarəsinə görə təzminat ödənilsin”.

### ”BİZİM İNKİŞAF EDƏN KİÇİK ADA DÖVLƏTLƏRİ ÜZRƏ XÜSUSİ FORMATIMIZ VAR”

Beynəlxalq tədbirlərin mərkəzinə, qlobal layihələrin təşkilatçısına çevrilən güclü və qüdrətli Azərbaycan müasir dünyamızı narahat edən məsələlərin müzakirə olunmasında unikal məkandır. Azərbaycanın xarici aləmdəki mövcud nüfuzunun, gücünün göstəricisi olaraq mədəniyyətlərarası siyasi dialoqları ehtiva edən, iqtisadi əməkdaşlığa əsaslanan forumların və s. təşkili ölkəmizə həvalə olunur. Ötən il BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a Azərbaycanın ev sahibliyi etməsi Azərbaycanda hökm sürən sabitliyin, təhlükəsizliyin göstəricisidir. COP29-un təşkilinə bir ildən də az vaxt olmasına baxmayaraq, Azərbaycan bu tədbirin yüksək səviyyədə keçirilməsinə nail oldu. Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğuru kimi, Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a ev sahibliyi etməsi ölkəmizin nüfuzunun daha bir göstəricisidir.

COP29 çərçivəsində bütün dünyada gedən proseslərə, o cümlədən iqlim, həm digər yaşıl ideyalar, yaşıl proqramla bağlı məsələlərə Azərbaycan platformasından baxıldı. Bu tədbir Azərbaycanın neft-qaz ölkəsi olmaqla yanaşı, yaşıl iqtisadiyyatı prioritet sahə kimi qəbul etdiyini bütün dünyaya göstərə bildi. Əlbəttə ki, COP iqlim dəyişikliyi ilə mübarizədə çox vacib və dünyanın ən əhəmiyyətli tədbirlərindən biridir.

Müasir dünyamızın üzləşdiyi problemlərdən olan iqlim dəyişmələrindən ən çox əziyyət çəkənlər ada dövlətləridir. Azərbaycan iqlim dəyişmələrinin mənfi təsirlərinə məruz qalan həssas ölkələr kateqoriyasına xüsusi olaraq diqqət ayırır. Kiçik ada dövlətlərinin üzləşdikləri çətinliklərin, iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılmasına öz töhfəsini verir. Kiçik ada ölkələrin üzləşdiyi çağırışların aradan qaldırılması COP29-da Azərbaycanın göstərdiyi səylərin əsasını təşkil edir. Qeyd edək ki, Millətlər Birliyinin 56 üzvündən 25-i inkişaf etməkdə olan ada dövlətləridir. Çağırışlarla üzləşən kiçik ada dövlətləri iqlim dəyişmələrinin intensivləşməsinə yüksək dərəcədə həssasdırlar. Azərbaycan inkişaf edən kiçik ada dövlətləri və Afrika ölkələrinin pandemiyadan sonra daha yaxşı bərpası üçün Qlobal Çağırışlar elan etdi. Bütün bunlar bir daha göstərir ki, ölkəmiz kiçik ada dövlətlərinə birmənalı dəstəyini ardıcıl olaraq nümayiş etdirir. Bildiyimiz kimi, COP29-a sədrlik edən Azərbaycan iqlim maliyyələşməsinə dair Fondun yaradılması təşəbbüsü ilə çıxış etmişdi. Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kiçik ada dövlətlərini dəstəklədiyi kimi, COP29-un sədri kimi onlara dəstəyini də ifadə etmiş oldu. ”COP29 çərçivəsində iqlim dəyişmələri ilə bağlı Afrika ölkələrinə birmənalı dəstək gündəliyimizin prioritetlərindən biri idi”, - deyən Prezident bildirib ki, bizim inkişaf edən kiçik ada dövlətləri üzrə xüsusi formatımız var, çünki yaranmış təhlükə onlar üçün ekzistensional xarakter daşıyır: ”Biz bunu bilirik, çünki onların mövcudluğu, ümumiyyətlə, dünya okeanının səviyyəsindən asılıdır. Lakin Afrika qitəsindəki ölkələrə gəldikdə, onlar da bizim gündəliyimizdədir Biz bəzi Afrika ölkələri üçün bir sıra aşağıfaizli kredit müqavilələri üzərində çalışırıq. Mən xüsusi təfərrüatlara varmaq istəmirəm, lakin bu, həqiqətən gündəliyimizdədir və biz daha fəal olmaq istəyirik. Bir yerdə çox iş görə bilərik, çünki biz xaricə sərmayələr yatırmaq istəyirik və investisiya üçün sahələr axtarırıq. İnvestisiya portfelimiz 20 milyard ABŞ dollarını keçib. Mən Azərbaycandan kənarda yatırılmış investisiyaları nəzərdə tuturam. Ona görə Afrika ölkələrinin potensialına gəldikdə, biz bunları birləşdirərək əməkdaşlıq qura bilərik”.

Azərbaycan Prezidenti İlham Əliyev III Şuşa Qlobal Forumunda çıxışı zamanı öz siyasətinin təməl prinsiplərini sadalayıb - xalqına həmişə həqiqəti söyləmək, obyektiv və dürüst olmaq, istənilən şəraitdə beynəlxalq hüquq prinsiplərinə əməl etmək. Xankəndidən bir daha Azərbaycanla bağlı həqiqətləri dünyaya mesaj olaraq çatdırıb.

***Zümrüd BAYRAMOVA***

# YAP nümayəndə heyəti Şimali Kiprdə Barış Hərəkatının 51-ci ildönümünə həsr olunmuş rəsmi tədbirlərdə iştirak edib







*İyulun 20-də Şimali Kipr Türk Cümhuriyyətində (ŞKTC) 1974-cü il Barış Hərəkatının 51-ci ildönümünə həsr olunmuş rəsmi tədbirlər keçirilib. Mərasimlərə müxtəlif ölkələri təmsil edən nümayəndə heyətləri qatılıblar. Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyəti də rəsmi tədbirlərdə iştirak edib.*

YAP nümayəndə heyəti "Ay ulduz – eyni yoldayıq" şüarı altında keçirilən strateji infrastruktur layihələrinin təqdimatında da iştirak edib. Yeni Lefkoşa Dövlət Xəstəxanasının təməlqoyma mərasimi və Lefkoşa Şimal Dairəvi Yolu üzərində inşa edilən körpülü kəsişmənin açılışı olub.

Qeyd edək ki, YAP nümayəndə heyətinə partiyanın İdarə Heyətinin üzvü, Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri Musa Quliyev, Mərkəzi Aparatın Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Taleh Həsənzadə daxildir. Nümayəndə heyətinin səfəri iyulun 21-də başa çatıb.

# DTX xaricdə "Abu Malik" kod adı ilə vətəndaşlarımızı tutduran şəxsi həbs edib

Azərbaycan vətəndaşlarını xaricdə xüsusi xidmət orqanlarına əməkdaşlığa təhvil verən, əməkdaşlıq etməyənlərin həmin xarici ölkədə həbs edilmələrinin təşkilində iştirak edən "Abu Malik" təxəllüslü şəxs müəyyən edilərək ələ keçirilib. SİA xəbər verir ki, bu barədə 18 iyul 2025-ci ildə keçirilmiş məhkəmə baxışı materiallarından məlum olur. Belə ki, Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilmiş antiterror tədbirləri nəticəsində 2022-ci ilin sentyabr ayından xarici xüsusi xidmət orqanları ilə "Abu Malik" təxəllüsü ilə əməkdaşlıq edən həmin şəxsin Azərbaycan vətəndaşı Əliyev Məhəmməd Şirin oğlu olduğu məlum olub.

Bu əməlləri xarici ölkə ərazisində törədən Məhəmməd Əliyev DTX-nin keçirdiyi əməliyyat-istintaq tədbirləri ilə ələ keçirilərək Azərbaycanda məhkəmə qarşısına çıxarılıb. Məlum olur ki, öz ətrafında radikal dini təriqətə meyilli şəxslərdən ibarət terror-təxribat qruplaşması formalaşdırmağa çalışan və bunun üçün vətəndaşlarımızı tələyə salan Məhəmməd Əliyev özü əməliyyatçılarımızın qurduğu tələyə düşüb. Hazırda DTX-də davam edən cinayət işi üzrə Məhəmməd Əliyevə AR Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə ittiham irəli sürülərək, barəsində Səbail Rayon Məhkəməsinin qərarı ilə 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

# YAP nümayəndə heyəti Şimali Kipr Türk Cümhuriyyətinə səfər edib







*Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) hakim Ulusal Birlik Partiyasının (UBP) dəvəti ilə Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin üzvü, Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri Musa Quliyev, Mərkəzi Aparatın Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Taleh Həsənzadədən ibarət YAP nümayəndə heyəti Barış Hərəkatının 51-ci ildönümü münasibətilə keçiriləcək tədbirlərdə iştirak etmək üçün bu ölkədə səfərdədir.*





Səfər çərçivəsində YAP nümayəndə heyəti bir sıra görüşlər keçirib. İyulun 19-da Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar nümayəndə heyətini qəbul edib. Görüş zamanı Azərbaycan və ŞKTC arasında tarixi ənənələrə əsaslanan dostluq və qardaşlıq münasibətləri vurğulanıb, siyasi partiyalar arasında əlaqələrin inkişafının əhəmiyyəti qeyd olunub. Tərəflər mədəniyyət, təhsil və gənclər sahəsində birgə təşəbbüslərin və müştərək layihələrin həyata keçirilməsi istiqamətində fikir mübadiləsi aparıblar.

YAP nümayəndə heyəti Şimali Kiprin Baş naziri Ünal Üstel ilə də görüşüb. Görüş zamanı Azərbaycan və ŞKTC arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı ticarət imkanlarının araşdırılması, turizm, təhsil və sosial sahələrdə birgə layihələrin həyata keçirilməsi imkanları ətrafında müzakirələr aparılıb. Tərəflər regionda sülh və sabitliyin qorunmasının vacibliyini də xüsusi olaraq qeyd ediblər.



Bundan əlavə, nümayəndə heyəti Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin sədri Ziya Öztürkler ilə görüş keçirib. Görüşdə parlamentlərarası əlaqələrin daha da inkişaf etdirilməsi, qanunverici orqanlar arasında təcrübə və informasiya mübadiləsi, eləcə də qanunvericilik sahəsində birgə müzakirələrin təşkili imkanları dəyərləndirilib. Qarşılıqlı səfərlərin və komitələrarası əməkdaşlığın gücləndirilməsi xüsusi olaraq vurğulanıb. Günün sonunda YAP nümayəndə heyəti Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin Ziya Öztürkler və xanımı Oya Öztürklerin adından Barış Hərəkatının 51-ci ildönümü münasibətilə verilən rəsmi ziyafətdə iştirak edib.

# Milli mətbuat 150: əsryarımdan ötən 365-lər




**X YAZI**

"Əkinçi"nin 150-ci ildönümü ərəfəsində Fəxri Xiyabandayam, Həsən bəy Zərdabinin məzarını ziyarət edirəm, hər bir jurnalist kimi borcum olaraq... Salamlar olsun müqəddəs ruhuna, Həsən bəy! Bilirəm, harada bir qəzet redaksiyası varsa, sənin ruhun oradadır. Hələ o da ola sələfinin yolunu böyük tarixi nailiyyətlərlə davam etdirən xələfin – 34 yaşlı "Səs" qəzeti. Onu da bilirəm ki, ruhun şad, xürrəmdir. Nə az, nə çox, düz 7 illik mücadilə, olmazın əzab-əziyyəti ilə, qarşıdurmalarla "Əkinçi"nin nəşrinə nail olub, Azərbaycanda milli mətbuatımızın banisinə çevrilməyini, ilk mətbu orqanın ardınca minlərlə qəzetlərin işıq üzü görməsini, ölkəmizdə sadiq davamçılarından ibarət böyük jurnalist ordusunun yaranmasını, mətbuatımıza söz azadlığının, müstəqilliyin verilməsini, illərlə bir mətbuat fədaisi yanarlığı ilə hər vilayətin qəzetinin o vilayətin güzgüsü olması gərəyi ilə bağlı arzularının reallaşmasını 150-dən ötən 365-lər sənə təfsilatı ilə çatdırıb.

Həsən bəy, mən də bu 150-nin bir qərinəlik dövrünü həyatımın bir hissəsinə çevirən mətbuat adamı kimi, nə qədər haqqım olduğunu bilmirəm, amma ustada üz tutub ötən 365-lərdə mətbuatımızla bağlı olanlardan, keçənlərdən ona – millətinin mənəvi yükünü söz yükünə çevirib illərlə çiyinlərində daşıyan, elə həmin yüklə də bu dünyadan əbədiyyətinə köç edən qocamanla söhbət etmək istədim. Sən bütöv bir millətin, xüsusilə də biz qəzetçilərin əzizisən. Sənin mürtəce qüvvələrin təqibləri, həbsləri, evinə basqınları ilə, ailənin hər an təhlükə ilə üz-üzə qalması, işindən kənarlaşdırılmağın, yaşayış yerindən uzaqlaşdırılmağın, ev dustağına çevrilməyin hesabına, lakin bu mübarizədən dönmədən yaratdığın mətbuatla, bir də Həsən bəy Zərdabi adı, şəxsiyyəti ilə minlərlə jurnalist qürur duyur: sənin davamçılarına çevrilə bildiyimiz, ötən hər günün tarixini yazdığımız, bu günü gələcəyə götürə bildiyimiz, ictimai həyata güzgü tutmağı bacardığımız üçün. Sənin "Əkinçi"nin böyük zəhmətkeşliklə toxum səpib cücərtdiyi "tarlalar" həm də bu gün minlərlə jurnalistin çörək ağacıdır. Söz əkib cümlə biçən, müasir dövrün ictimai həyatının fəal "Əkinçi"lərinə çevrilən hər birimiz sənin ruhuna duaçıyıq, ustad. Bilirsənmi nəyə görə? Səndən öyrənmişik mücadiləni, mübarizədən əl götürməməyi. Səndən öyrənmişik insanların haqqı olanların haqqında yazmağı, həyata güzgü tutmağı, düzü düz, əyrini əyri görməyi...



Həsən bəy, bir qədər əvvəldən danışım sənə. Səndən sonra bilirsənmi nələr oldu? "Əkinçi"nin adı ilə bağlı nə qədər fikir ayrılıqları yarandı. Qəzetə nə üçün məhz "Əkinçi" adının qoyulması ilə bağlı bir çox tədqiqatçılar ayrı-ayrı mülahizələr irəli sürdülər. Onlardan bəziləri söylədilər ki, "Əkinçi" elə lap əvvəldən kənd təsərrüfatı məsələlərini əks etdirən bir qəzet olmalı imiş. Bununla qətiyyən razılaşmadıq. Çünki yaxşı bilirdik ki, qəzetə verilən "Əkinçi" adı təsadüfi deyildi. "Əkinçi" adı elə onun demokratikliyinin göstəricisi idi. Bunu da bilirdik ki, sən o dövrdə qəzetə diqqətçəkən ad verə bilməzdin. İllərlə çar müstəmləkəçilərinin süründürməçilik əzablarına tab gətirib, qəzet çıxarmaq üçün icazə alanda bilirdin ki, qəzetin adı da, orada yazılanlar da zərrəbinlə analiz ediləcək. Buna görə də çarizmin diqqətini çəkməyən ad altında, sərlövhələr altında nəzərində tutduqlarının hamısını həyata keçirməyə başladın. Axı bu barədə özün də "Həyat" qəzetində dərc edilmiş "Rusiyada əvvəlimci türk qəzeti" adlı məqalələndə yazırdın: "Bizim qubernator... general Staroselski, doğrudur, xalis rus idi, amma övrəti gürcü qızı idi. Ona görə də Qafqazın yerli əhlini artıq dost tuturdu... mən ona dərdimi deyəndən sonra məsləhət gördü ki, qəzetin adını "Əkinçi" qoyum ki, guya məhz əkin və ziraətdən danışacaq və özü də boynuna çəkdi ki, senzorluğu qəbul eləsin. Bu tövr ərizə verib izn aldım".




Səni sevənlər, davamçıların sübut etdilər, Azərbaycan Respublikası Elmlər Akademiyası yanında Respublika Əlyazmaları fondundan əlyazmalarını araşdırdılar və əsl məqsədini ortaya qoydular: "Əkinçi"nin qarşısında, hər şeydən əvvəl, siyasi vəzifə dururdu və əkinçilik vəzifələri ona tabe idi. Dini mövhumata qarşı mübarizə, dini məktəblərin pislənməsi, yeni, dünyəvi elmlərin geniş təbliği, xalqı azadlığa çağırmaq, geniş maarif uğrunda mübarizə əkinçilik məsələləri dairəsindən çox-çox kənara çıxırdı. Qəzetin bölmələrinə ayrı-ayrı adlar qoyulmasına baxmayaraq, onlar adları çəkilən bu məsələlərlə üzvi surətdə bağlı idi. Sənin öz dilinlə həmin misallardan biri... "Əkinçi", 14 aprel, 1876-cı il. "...Mənim dostum...mənə yazır ki, haçan elmi-əbdan bəhsindən əl çəkəcəksiniz və o bəhsin qəzetdə işi nədir? Ondan əlavə yazır ki, ol qədər qəzetdə elmi təhsil etmək xüsusunda yazırsınız ki, qorxuram bu ən qərib zamanda xalqın qəzet oxumaqdan rəğbəti kəsilsin... Salisən, qəzet dərviş kimi nağıl deyə bilməz, onun borcudur işlərin yaxşı və yamanlığını ayna kimi xalqa göstərsin, ta xalq öz nikbədindən xəbərdar olub onun əlacının dalıncan olsun... Pəs, dostum, doğru deyiblər ki, əlhəqq mürrün (doğru söz acı olur). Amma bizə hökm olub ki: qülil-həqq və löv kanə mürrün (deyin sözün doğrusunu acı da olsa)!"

Söz yox ki, bəylərin, mülkədarların əlində cəmləşən torpaqların onların əlindən alınaraq kəndlilərin xüsusi mülkiyyətinə, istifadəsinə verilməsinə çox cidd-cəhd göstərirdin. Təhqirlərə, təzyiqlərə, hədə-qorxulara məruz qalsan da, bir kəndli ideoloqu kimi onlara hüquqların anladır, qorxmazlığın və cəsurluğunla qoluzorlulara qarşı çıxır, kəndlini aldadan, əməyini istismar edənlərlə mübarizə aparırdın.

Nəhayət, Həsən bəy, bunu əvvəldən anlamalı idik ki, çarizm doğru söz danışanların dilini kəsdiyi, susdurduğu halda, təbii ki, milli mətbuat yaratmaq təşəbbüsündə olanlara imkan verməzdi. Çünki bunun nə ilə nəticələnəcəyini yaxşı bilirdi. Avropada, Rusiyada – gözünün qarşısında milli mətbuatının yaranmasının xalqa, millətə müsbət nəticələrini görür, müstəmləkə siyasətində bunun heç də yaxşı nəticə verməyəcəyini, sözün kütlələrin şüurunda inqilab yaradacağını gün kimi aydın bilirdi. Elə məhz buna görə də ictimai quruluşda dönüş yarana biləcəyinə əmin olan çarizmin ən ehtiyat etdiyi sahə mətbuat idi. Bax bunlara görə sən o qədər incidildin, acılar çəkməyə məhkum oldun... Amma qalib gəldin...

150-dən ötən 365-lərdə nələr, nələr oldu... Bitdimi sandın, ustad?.. Mübarizə apardığın çarizmin mürtəce ünsürlərinin yerini sənin vəfatından cəmi 10 il sonra yeni bir "ittifaq" burjuaziyası aldı. Düz 70 il... Əgər sənin dövründəki çarizm siyasətini 70 il əsarətində yaşadığımız sovetlər birliyinin müstəmləkəçilik siyasəti ilə müqayisə etsək, xalqın eyni bəlalara düçar olduğunun, nəyi əldə etməkdə ləngidiyinin yalnız bu siyasətlə bağlı olduğunu aydınca görərik. Məgər 1917-18-ci illərdən 1990-cı illərədək xalqın yaşadıqları – müstəqilliyinin zorla əlindən alınması, 70 il rus imperiyasının əsarətində yaşaması, torpaqlarının erməni əli ilə işğalı, repressiyalar, ləkələr, qırğınlar, qanlar, xalqın saysız-hesabsız şəhid verməsi tarixən davam etdirilən bu siyasətin bəhrələri deyildimi? Bu xalqın başının çəkmədiyi bəlalar qalmadı

Həsən bəy, banisi olduğun milli mətbuatın milli azadlıq hərəkatında nə qədər böyük rolu oldu, bilirsənmi? Qanında onsuz da azadlıq toxumu olan və mətbu çağırışlarla bu toxumların cücərərək azadlıq fədailərinə çevirdiyi azərbaycanlılar qanlar, qırğınlar bahasına 1991-ci ildə müstəqilliyimizi bərpa etdilər. Müstəmləkədən yaxa qurtardıq, müstəqil olduq. Lakin birinci – 1918-ci ildə qazandığımız müstəqillik qədər itirilmək təhlükəsində idi budəfəki müstəqilliyimiz də. Təsadüfə bax, elə mətbuat günündə – 22 iyulda gəldi xilaskarımız – böyük şəxsiyyət Heydər Əliyev. Vətəninin dar günündə – Azərbaycanı düşdüyü bəlalardan xilas etmək, müstəqilliyini qorumaq üçün gəldi. Bu gəlişlə xalq da xilas oldu, müstəqilliyimiz də, xilaskarın özü isə xalqın Ümummilli Liderinə çevrildi. O Xilaskar sənin yaratdığın mətbuatın əsl dostu, qədirbiləni oldu. O gəlişlə ölkəmizdə azad mətbuat formalaşdı, mətbuat üzərindəki 70 illik senzura sistemi ləğv edildi. Yüzlərlə qəzet redaksiyası yarandı. Jurnalistlərə söz, mətbuat azadlığı verildi. Onlar üçün fəxri adlar təsis olundu, əməkləri qiymətləndirildi, mənzil-məişət şəraitləri yaxşılaşdırıldı. Jurnalistlərin hər hansı problemini deyə biləcəkləri ünvan – Mətbuat Şurası, daha sonra Medianın İnkişafı Agentliyi yaradıldı.

*Ardı Səh. 6*

# Milli mətbuat 150: əsryarımdan ötən 365-lər



Əvvəli-Səh-5

Ən qürur duyulası hal isə o oldu ki, jurnalistlər dördüncü hakimiyyətin nümayəndələrinə çevrilib birinci hakimiyyətin bütün sahələrdə köməkçiləri oldular.

Həsən bəy, ötən 365-lərdə "Əkinçi"nin yubileyləri haqqında sərəncamlar imzalanıb, təntənəli bayram tədbirləri keçirilib. Budur, "Əkinçi"mizin – Azərbaycan mətbuatının yubileyini qeyd edirik. Ölkəmizin Prezidenti cənab İlham Əliyev "Azərbaycan mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb. "XIX əsrin ikinci yarısında dünyanın neft və sənaye mərkəzlərindən birinə çevrilmiş və iqtisadi yüksəliş dövrünü yaşayan Azərbaycanın ictimai-siyasi və mədəni həyatında əsaslı dəyişikliklər baş vermiş, maarifçilik hərəkatı genişlənməyə başlamış, milli mətbuatın yaranması zərurəti meydana çıxmışdı. Məhz buna görə də 150 il əvvəl – 1875-ci il iyulun 22-də görkəmli ziyalı, təbiətşünas alim və maarifçi-publisist Həsən bəy Zərdabinin Azərbaycan dilində nəşr etdirdiyi "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi və ölkəmizin həyatında mühüm hadisə kimi tarixə düşmüşdür. Cəmi iki il fəaliyyət göstərən qəzet maarifçi ideyaların carçısı olmuş, cəhalətə və xurafata qarşı kəskin məqalələr dərc etmiş, milli özünüdərkin, ictimai, siyasi və bədii fikrin inkişafına, mütərəqqi jurnalist nəslinin yetişməsinə önəmli töhfə vermişdir". Sərəncamda deyilən bu sözlər mətbuatımızın dünəninə – sənə – Həsən bəy Zərdabi şəxsiyyətinə və bugününə – biz jurnalistlərə verilən böyük dəyərdir.

Ey böyük ustad, ey böyük sələf, 34 yaşlı xələfin "Səs" qəzetindən də xəbər almaq istəyərsən, bilirəm. Odur ki, mən danışım, sən dinlə. Ölkəmizdə "Səs" kimi həm müstəqilliyimizlə yaşıd, həm də müstəqilliyimizin bərpasında, ondan sonrakı Azərbaycanın mürəkkəb ictimai-siyasi həyatında sözünü deməyi bacaran çox az sayda qəzet var. "Səs" qəzeti respublikanın ağır günlərində bir qrup ziyalının Ümummilli Lider Heydər Əliyevə təkidlə Bakıya-hakimiyyətə gəlməsi üçün ünvanladığı məktubu və onun cavabını çəkinmədən səhifələrində nəşr edən qəzetdir. Hansı ki, həmin dövrdə buna və digər haqlı səsinə görə təzyiqlərlə, təhdidlərlə qarşılaşmalı olmuşdu. Lakin "Səs" bugünkü Azərbaycan üçün hələ 30 il əvvəl öz haqq səsini qaldırmış, böyük uzaqgörənliklə Ulu Öndərimzin mövqeyindən çıxış edərək xalqın qurtuluşunu böyük Liderdə görmüşdür. Sonrakı illərdə də qəzet missiyasını ləyaqətlə yerinə yetirmiş, dövlət siyasətinin düzgün təbliğatçısına çevrilmişdir.

Bu qəzet sənin ənənələrinə sadiqliyi ilə bir qərinədir ki, ölkəmizin dünənindən bu gününə, bu günündən gələcəyə öz saldığı körpü ilə yollanır. Bu qəzet artıq qəzetlikdən məktəbədək ucalıb. Ölkəmizdə nə ziyalılar həyat yollarına bu qəzetin cığırıyla çıxıblar, ictimai-siyasi həyatın aparıcı qüvvələrinə çevriliblər. Ulu Öndərimiz də vaxtilə bu qəzetə yüksək qiymət verərək demişdir: ""Səs" qəzeti mənim üçün çox əziz və artıq Partiyamızın tarixində möhtəbər yer tutmuş qəzetdir. Bu qəzet qorxmadan ziyalıların mənə müraciətini və mənim cavabımı dərc edib İndi də durmadan modernləşir, yaxşılaşır, arzum budur ki, daha da modernləşsin, yaxşılaşsın ".

Həsən bəy, Azərbaycan mətbuatı ötən 30 ildən artıq dövrdə çətin və sınaqlarla dolu bir yol keçib. Yuxarıda da qeyd etdiyim 70 il, onun ardınca 1918-ci ildə qazandığımız, lakin əlimizdən alınan müstəqilliyimizin 1991-ci ildə bərpası illərindən üzü bu yana nə tarixi hadisələrlə qarşılaşıb. Bütün bu hadisələr kütləvi informasiya vasitələri tərəfindən tarixin səhifələrinə köçürülüb. Biz jurnalistlər 90-cı illərdə Birinci Vətən Müharibəsini, bu xalqın acılarını, başına gətirilən min bir oyunu qələmə almışıq. Həmin müharibədə verdiyimiz minlərlə şəhiddən, sağlamlığını itirən minlərlə qazidən yazanlar olmuşuq. Bu xalq 90-cı illərdə torpaq itirib, biz o torpaqlara həsrət soydaşlarımızdan, qaçqın, köçkün, didərgin statusu ilə yaşayan insanlardan ürək ağrısı ilə yazanlar olmuşuq.

Zəfərəqədərki illərdə dövlətimizin başçısı torpaqlarımızın qaytarılması üçün bütün beynəlxalq qurumlara üz tutdu. Lakin bizim haqq səsimizə səs verən olmadı. Biz jurnalistlər dövlət rəhbəri tərəfindən ölkəmizin inkişafı, eyni zamanda onunla paralel aparılan ordu quruculuğu, torpaqlarımızın geri alınması üçün görülən tədbirlərdən davamlı yazmışıq.

Həsən bəy, bilirsənmi, 2020-ci ildə, "Əkinçi"nin 145 illik yubileyindən cəmi 2 ay sonra nə baş verdi? Ermənilərin yeni torpaq iddiaları ortaya çıxdı. Bu dəfə səbir kasamız daşdı. Dövlətimizin başçısı onları susdurmağın vaxtı çatdığını bəyan etdi və İkinci Vətən Müharibəsi başlandı. Xalq öz Liderinin ətrafında birləşib "dəmir yumruğ"a çevrilərək onu düşmənin başına endirdi. Bütün dünya Azərbaycanın hərbi taktikasına, birliyinə, həmrəyliyinə heyran qaldı. Biz 2020-ci ilin payızının 44 günü ərzində düşmən üzərində Zəfər çaldıq. Bu dəfə də minlərlə şəhidimiz, qazimiz oldu. Lakin şərəf işimizi həll etdik, torpaqlarımızı geri aldıq. Neçə jurnalistimiz cəbhədən reportaj hazırlayarkən şəhid oldu. Bütün şəhidlərimiz, həm də həmkarlarımız üçün çox kədərləndik, lakin Zəfərimiz üçün də çox sevindik. Biz oğullu-qızlı-hamımız canımızdan keçməyə hazırıq. Təki bir qarış torpağımız düşmən əlinə keçməsin. Axı torpaq namusdur.

Həsən bəy, bilirsənmi, biz necə xoşbəxt jurnalistlərik? Çünki Zəfərdən, qələbədən yazmaq nəsibimiz oldu. O torpaqlara gedib onları görmək qismətimiz oldu. Düşmən o yerlərdə daşı daş üstündə qoymayıb, xəbərin olsun. Lakin o torpaqların ətri eyni ətirdir: doğma ətir... Biz artıq Qarabağa qayıdırıq, Böyük Qayıdış başlanıb. Zəngilanın Ağalı kəndinin sakinləri, laçınlıların, ağdamlıların və sair soydaşlarımızın bir qismi dədə-baba yurdlarına qayıdıblar. Qarabağda bərpa işləri sürətlə aparılır. Yaxın gələcəkdə bütün rayonların sakinləri öz evlərinə qayıda biləcək. Bütün bunlardan mərhələli şəkildə yazmaq, bilirsənmi, nə qədər xoşdur?

Bütün bunları sənə çatdırmağımdan yəqin çox məmnun qaldın, Həsən bəy. Çünki ruhun narahat idi. Yaratdığın mətbu orqanın davamçılarının 30 ildə dayanmadan-durmadan bu mövzuda yazması böyük əndişənə çevrilmişdi. Gözün aydın, gözümüz aydın, ta torpaqlarımız azaddır.

Böyük ustad, ruhun şad olsun, qəbrin nurla dolsun. Çox xoşbəxt insanmışsan. Xoşbəxtsən, ona görə ki, əsr yarım bir dövrün yaddaşlarda qalanı, xatırlananısan. Həm də həyatın ən vacib sahəsi, insanlara hava və su qədər vacib olan mətbuatda. Xoşbəxtliyin bir də ondadır ki, 150 il öncə "Əkinçi" ilə birgə səpdiyin toxum 150-dən ötən hər 365-də elə inkişaf edib, şaxələnib, köklənib, cəmiyyətin elə bir gərəkli sahəsinə çevrilib ki, indi artıq heç kim həyatını mətbuatsız təsəvvür edə bilmir...

İyulun 19-da Prezident İlham Əliyevin III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı mətbuatımız və jurnalistlər haqqında səsləndirdiyi dəyərli fikirləri ümumilikdə 150 illik tarixi yola verilən qiymətdir: Bu gün Azərbaycan mediası dövlət maraqlarını qorumağa qadirdir. Azərbaycana qarşı əsassız ittihamları arqumentlərlə, ciddi təhlillə və faktlar əsasında ifşa etməkdə də böyük uğurlar əldə edib. Bizim mediamız nəinki dövlət maraqlarını müdafiə edir, eyni zamanda, lazım gəldikdə hücuma da keçir. Bu da lazımdır. İdmanda bəzən deyirlər ki, ən yaxşı müdafiə hücumdur. Mən bu tezisə şərh vermək istəmirəm. Amma fakt odur ki, bu gün Azərbaycan mediasını bir çox ölkələrdə müxtəlif səviyyələrdə oxuyurlar, mediada gedən yazıları, məqalələri təhlil edirlər. O məqalələrin Azərbaycanın rəsmi mövqeyinə nə dərəcədə uyğun olub-olmaması ilə bağlı da fərziyyələr irəli sürülür. Bu, deməyə əsas verir ki, mediamız doğrudan böyük inkişaf yolu keçib. Media deyəndə mən ilk növbədə jurnalistləri nəzərdə tuturam. Çünki medianı nüfuzlu edən məhz əməkdaşlardır, sizin kimi insanlardır, sizin həmkarlarınızdır. Mən, sözün əsl mənasında, sevinirəm və sizə yeni uğurlar arzulayıram. Azərbaycan bu gün elə bir mərhələdədir ki, hələ də özünü müdafiə etməyə ehtiyacı var. Bu gün Avropadan olan həmkarınız da artıq bu sualı verəndə də onu qeyd etdi: Siz Qərbin ictimai fikrinə, ictimai rəyinə necə təsir edə bilərsiniz? Məncə, media ən yaxşı vasitədir. Bizim media işçilərinin əhatə dairəsi nə qədər çox geniş olarsa, ölkə haqqında o qədər də dəqiq, dolğun və ədalətli məlumat dünya ictimaiyyətinə çatdırıla bilər. Burada hələ görüləsi işlər çoxdur. Ancaq mən deyə bilərəm ki, bizim mediamız artıq istənilən xoşagəlməz, iftira kampaniyasına cavab verməyə qadirdir və bu, çox önəmli yeni reallıqdır.

***Mətanət Məmmədova***



MƏTLƏB
Metlebsalahov@mail.ru

## Şuşadan mühüm MESAJ: hədəf peşəkar və operativ medianın qurulmasıdır!

***III Şuşa Qlobal Media Forumu bir sıra aktual məsələlərlə yadda qaldı. İlk öncə Prezident İlham Əliyevin Xankəndidə Forum iştirakçıları ilə görüşü zamanı səsləndirdiyi fikirlər medianın hazırkı durumu və gələcək inkişafı üçün, habelə Azərbaycanın mövqeyinin dünya icitmaiyyətinə çatdırılması baxımından olduqca önəmli hadisədir. Çünki zaman-zaman ölkəmizə qarşı feyk xəbərlərin geninə-boluna "istehsal" edildiyi bir zamanda yaşayırıq və öikəmizlə bağlı obyektiv informasiya axını üçün bu cür tədbirlərin keçirilməsi zəruridir.***

Cənubi Qafqazın ən böyük media forumunun Qarabağda təşkili, ilk növbədə Azərbaycanın bölgənin lider ölkə statusunun beynəlxalq media platformasında qəbulu deməkdir. Ən tanınmış media simalarının və dünyanın reytinqli KİV-lərinin III Şuşa Qlobal Media Forumuna qatılması həm də Azərbaycana olan güclü marağın təzahürüdür. Diqqət edin: bu forum zamanı səsləndirilən əksər fikirlər media peşəkarlığı, media savadlılığı və feyk xəbərlərə qarşı mübarizə məsələləri üzərində qurulmuşdu.

Etiraf olunmalıdır ki, bu gün beynəlxalq ictimaiyyətdə Azərbaycanla bağlı saysız-hesabsız feyk xəbərlər dolaşır. Bu cür yalan xəbərlərin çoxu da nəzarətsiz qalan, dedi-qodu səviyyəli platforma olan sosial media seqmentindən qaynaqlanır. Əlbəttdə, bunlar təkcə təsadüfən deyil, həm də məkrli və planlaşdırılmış təxribat xarakterli məlumatlardır. Bu cür informasiya təxribatlarına qarşı Azərbaycanın operativ və peşəkar media seqmentinin formalaşması çox vacibdir. Amma real vəziyyət çox vaxt necədir? Bu gün ciddi medianın operativlikdə sosial şəbəkə seqmentinə uduzması, sosial media platformasının feyk xəbər oylağına, mətbəx dedi-qodusuna çevrilməsi ən böyük narahatçılıqdır.

Lakin məsələnin digər bir üzü də var. Həmin bu dedi-qodu, qeybət deyə aşağıladığımız platforma Azərbaycan cəmiyyətini ilkin informasiya ilə təmin edən, ictimai fikrə nəinki təsir edən, həyttda onu yönəldən qüvvədir. Bu faktdır, gerçək və acı reallqı budur, vəssalam!

Bu gün Azərbaycan əhalisinin ən azı 80 faizi Tik-tok, feysbuk, instaqram səhifələrində gün keçirir. Real fakt odur ki, ilk xəbər mənbəyi də məhz bu platformalardan alınır. Yöndəmsiz, nizama salınmamış, tam dəqiqləşdirilməmiş məlumat bazasıdır soisal media platforması. Amma yuxarıda qeyd etdiyim kimi, sosial media platforması həm də ilkin informasiya mənbəyidir, bu etiraf olunmalıdır. Ciddi mətbuat isə bütün hallarda bu platformaya uduzur. Bu gün Azərbaycan mətbuatının iqtisadi bazasını formalaşdırmaq, operativ və çevik, etibarlı xəbər qaynağı kimi önə çıxmasını təmin etmək ən aktual, bir nömrəli məsələdir. Medianın iqtisadi bazasını formalaşdırmaq isə onun maliyyə gücünü formalaşdırmaq deməkdir. Əlbəttdə reklam bazarının bu məsələdə rolu birmənalı əsasdır. Lakin reklam verən qurumlar da nüfuzlu, ictimai düşüncəyə təsiredici gücə sahib olan mediaya üz tuturlar. Bu gün 150 illik mətbuatımızın peşəkar və səviyyəli statusuna nail olmaq üçün görülməli işlər çoxdur. Lakin ön sırada bunlar gəlir: Peşəkarlıq və son dərəcə operativlik!

# Medianın İnkişafı Agentliyi Azərbaycan vətəndaşlarına, jurnalistlərə və ictimai fəallara çağırış edib

*Medianın İnkişafı Agentliyi sosial şəbəkə hesablarında paylaşılmış saxta informasiya ilə bağlı açıqlama yayıb. AZƏRTAC açıqlamanı təqdim edir: "Bir sıra sosial şəbəkə hesablarında Azərbaycan Respublikasının Baş nazirinin birinci müavini Yaqub Eyyubovun adından guya Azərbaycanın Rusiyaya qarşı aqressiv siyasət yürütdüyünə dair "deep fake" texnologiyası ilə hazırlanmış, heç bir reallığı əks etdirməyən açıqlama yayılmışdır.*




Qeyd edirik ki, bəlli dairələr tərəfindən süni intellektin köməyi ilə yaradılaraq informasiya mühitini çirkləndirməyə yönəlmiş bu saxta videogörüntülər ictimai rəyi çaşdırmağa xidmət edən kobud manipulyasiya nümunəsidir.

Cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi informasiyaya inanmağa çağıraraq xatırladırıq ki, dövlətin rəsmi mövqeyini ifadə edən məlumatları rəsmi mənbələrdən, eləcə də ölkənin informasiya agentlikləri və digər peşəkar media subyektlərindən əldə edə bilərsiniz.

Azərbaycan vətəndaşlarını, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların, "deep fake" texnologiyaları ilə məzmunyaratma tendensiyasının vüsət aldığı bir şəraitdə sayıq olmağa səsləyirik".

# Regionun maraqlarını təmin edən MÖVCUD GEOSİYASİ VƏZİYYƏT




***Bütün dünyanın gözü önündə Qafqaz kəskin şəkildə dəyişir və yeni reallıqları hər kəs qəbul etməkdədir. Sözsüz ki, 44 günlük müharibə və Azərbaycanın mükəmməl qələbəsinə qədər Qafqazı məhz təkcə xüsusi maraqları deyil, Rusiyanın prioritet təsir dairəsi adlandırmaq olardı, amma indi belə bir fikrə də düşmək mümkün deyil. Hazırda hansısa müstəsna təsirləri istər xarici oyunçular, istərsə də region ölkələrinin özləri belə qətiyyən qəbul etmirlər. Hansısa manevrlər üçün imkanın belə olmadığı göz önündədir və dəyişən regional geosiyasi dizayn tamamilə fərqlidir. Fərqli olan məhz Cənubi Qafqazda mövcud geosiyasi vəziyyətdir...***

### Müşahidə edilən kardinal geosiyasi dəyişikliklər regional nizamın keyfiyyətcə yeni mərhələyə transformasiya olunduğunu isbatlayır

Tarixə ekskursiya etdiyimiz zaman görürük ki, Cənubi Qafqaz ənənəvi olaraq, bütövlükdə Avrasiyanın hər dövrdə diqqət mərkəzində, maraq dairəsində olan ən dinamik regionlarından olub. Hətta SSRİ dövründə belə Qafqaz diqqət mərkəzində saxlanılıb. Kremlin Cənubi Qafqaza marağı ümuniyyətlə təkzib edilə bilməz, çünki tarixi faktlar təkzibedilməzdir. Bu təkzibedilməz faktları elə Sovetlər dönəmində Avropa ölkələri də görürdülər və bəlkə də Qafqaza burun soxmaqda ehtiyat etmələri də bu səbəbdən olub. Amma bu demək deyildi ki, Qafqaz avropalıların maraq dairəsindən kənarda qalıb. Əsla. Hər bir halda, Cənubi Qafqaz ölkələri, həmin ərazilərin resursları maraq doğurub və bu barədə də dünya ictimaiyyəti məlumatlıdır. Hər kəs artıq şahidi oldu ki, regionda olan münaqişə və müharibə zamanı nə qədər təsir etməyə çalışıldısa da, bunun heç bir mənası olmadı. Avropanın məhz Fransa kimi bir ölkəsi belə nə qədər burun soxmağa, təsir etməyə, münaqişəni uzatmağa çalışsa da buna nail ola bilmədisə, deməli, digərləri üçün də bir dərs oldu. Dərs də o oldu ki, regionda hər şey nəzarət altındadır və regionda lider dövlət olan Azərbaycan hansısa müdaxilələrə imkan verməz. Bunu məhz son zamanların reallıqları, geosiyasi dəyişikliklər ortaya qoydu. Bir sözlə, Cənubi Qafqazda bir-birinin ardınca müşahidə edilən geosiyasi dəyişikliklər, özü də kardinal dəyişikliklər regional nizamın keyfiyyətcə yeni mərhələyə transformasiya olunduğunu isbatlayır.

Regionda yaranan və hesablaşılan yeni güc balansı

Ən qısa müddət ərzində hərbi-siyasi status-kvonun iki dəfə dəyişdiyini də hər kəs izlədi. İkinci Qarabağ müharibəsi, Azərbaycanın mükəmməl qələbəsi ilə bitən 44 günlük müharibə məhz 26 ildir mövcud olan qüvvələr balansını kökündən dəyişdi. Hətta pozdu. Bu məsələnin əhəmiyyəti vahid etnosiyasi münaqişənin həllindən də böyükdür. Bunun əhəmiyyəti təkcə Azərbaycanın keçmiş məğlubiyyətlərinin qisasını alaraq, itirilmiş ərazilərinə nəzarəti bərpa etməkdən ibarət deyil. Əvvəla, regionda sabitlik üçün əsaslı zəmin yaradıldı. Cənubi Qafqaz məhz region ölkələrinin özlərinin nəzarəti altında olmağa başladı. Yəni, bölgədə sabitlik, stabillik son dərəcə möhkəmləndirildi. Digər tərəfdən də Türkiyənin bu müharibədə siyasi dəstək ifadə etməsinin ardınca məhz Türk Dövlətləri Təşkilatının fəallaşmasında, güclərin birləşdirilməsində əvəzsiz töhvə oldu. Bu isə o deməkdir ki, regiona burun soxmaq istəyən qüvvələr burada Türkiyə-Azərbaycan tandemini nəzərə almaq məcburiyyətindədirlər. Nəinki nəzərə almaq, hətta bundan çəkinmək məcburiyyətində olduqlarının fərqində olanlar kifayət qədərdir və bu da regionda, Cənubi Qafqazda sabirlik, stabilli, sülh və əminamanlı üçün töhvə deməkdir. Bəli, 2023-cü ilin sentyabrında Azərbaycan Dağlıq Qarabağ ərazisi üzərində tam suverenlik bərqərar etdi və ərazi bütövlüyünü tam təmin etməklə mövcud geosiyasi vəziyyəti təyin etdi, dəyişdirdi. Eyni zamanda, qeyd olunduğu kimi, Türkiyə-Azərbaycan tandemi fonunda Türkiyənin regionda təsirinin güclənməsi fonunda diplomatik mənzərə də fərqli oldu. İndi təkcə region ölkələri deyil, İran və Rusiyanın timsalında qonşu ölkələr belə öz hesablarını aparmaqdadırlar.

Bir zamanlar mövcud olan, artıq keçmişdə qalan münaqişənin həllinə guya mükəlləf olan, əslində isə, heç bir iş görməyən, yalnız münaqişəni uzatmağa çalışaraq, Qafqazda mövcudluğunu qorumağa çalışan ATƏT kimi bir qurum belə oyundan kənar vəziyyətdə qaldığının artıq fərqindədir. Bütövlükdə Avropa, Qərb ölkələri artıq çox şeyin fərqindədirlər və əsas da onun fərqindədirlər ki, Qafqazda vəziyyət heç də əvvəlki kimi, istədikləri şəkildə deyil və həqiqətən də mövcud geosiyasi vəziyyət region ölkələrinin maraqlarını təmin edir...

***İnam Hacıyev***

TƏHLİL



Vüqar Vəliyev

## Ailəni dağıdaraq azadlıq qazanmaq olarmı?

***Müasir dövrdə azadlıq anlayışı o qədər təhrif olunub ki, artıq insanlar ailə dəyərləri ilə azadlığı bir arada təsəvvür etməkdə çətinlik çəkir. Xüsusilə də son illərdə televiziya, radio və sosial şəbəkələrdə qadın azadlığı və ailə münasibətləri haqqında yayılan verilişlər, mövzular və debatlar cəmiyyətimizdə ciddi narahatlıq doğurur. Bəs bu narahatlıq nədən qaynaqlanır?***

### "Azadlıq" adı altında ailəyə edilən zərbə

Artıq efirlərdə demək olar ki, hər gün ailə məsələləri müzakirə olunur: "qadın ərinə tabesizlik göstərdi", "ər həyat yoldaşına xəyanət etdi", "gəlin qayınanaya hörmətsizlik etdi", "uşaq atılıb", "qadın azadlığını tələb etdi" və s. Ən təhlükəlisi isə odur ki, bu halların əksəriyyəti cəmiyyətə normal kimi təqdim olunur. Və əgər bu "normaları" davamlı şəkildə gənclərə sırıyırıqsa, gələcəyimiz nə olacaq?

Əlbəttə, cəmiyyət dəyişir, zaman irəliləyir. Amma dəyişmək ailəni əzmək, qadını ailəyə qarşı qoymaq, dəyərləri ayaqlamaq bahasına baş verməməlidir.

Qadınlar tarix boyu Azərbaycan mədəniyyətində yüksək yer tutub. Onlar nə hörmətsizlik olub, nə də azadlıqdan məhrum. Tariximiz Sara Aşurbəyli, Xurşidbanu Natəvan, Üzeyir Hacıbəylinin bacısı Ümmügülsüm kimi yüzlərlə qadını tanıyır. Onlar öz sözünü deyib, elmə, ədəbiyyata, cəmiyyətə töhfələr verib. Amma heç biri ailədən, övladdan, milli dəyərdən imtina etməyib.

### Mediada formalaşan təhlükəli model

**Bugünkü media isə başqa model formalaşdırır:**

Qadın ailəsini tərk etməlidir ki, "özünü tapa bilsin"

Həyat yoldaşı ilə problem yaşayan şəxs efirə çıxıb bütün həyatını danışmalıdır

Valideynlər canlı yayımda övladlarını ittiham etməlidir

Ər və arvad ictimai qınaqla "dəyişməyə" məcbur edilməlidir

Bütün bu səhnələr reytinq üçün hazırlanır, amma təsiri cəmiyyətin şüuraltısına işləyir. İllərlə qurulan ailə modeli dəyişir, övladlar psixoloji baxımdan zərbə alır, hörmət, səbir, bağışlama kimi anlayışlar sıradan çıxır.

### Maarifləndirmə əvəzinə şou

Əslində media böyük bir gücdür. Cəmiyyətin tərbiyəsində, maarifləndirilməsində, yeni nəslin yetişdirilməsində böyük rol oynayır. Amma bu gücdən nə məqsədlə istifadə etdiyimiz çox önəmlidir. Əgər efirdə ailə dəyərlərinin təbliği, qadınların uğur hekayələri, ana-övlad münasibətlərinin gözəl nümunələri, qarşılıqlı hörmət və anlaşma mövzu olsaydı, bu, cəmiyyətdə daha sağlam bir atmosfer yarada bilərdi.

Amma təəssüf ki, bu gün maarifləndirmə yox, şou ön plandadır. Ailənin sirri, şəxsi münasibətlər, övlad tərbiyəsi canlı yayıma çıxarılır və "ictimai hökmə" çevrilir.

### Qadın azadlığı nədir, nə deyil?

Qadın azadlığı oxumaq, işləmək, inkişaf etmək, fikrini sərbəst ifadə etmək, hüquqlarını qorumaq deməkdir. Qadın azadlığı ailəni dağıtmaq, övladı tərk etmək, ərinlə düşmən olmaq, ailəni sosial mediada biabır etmək deyil.

Azad qadın, ailəsini sevən, hörmət edən, amma eyni zamanda öz fikri, öz dünyası olan qadındır. O, dəyərləri ilə barışıq içində azad ola bilər. Azadlıq heç vaxt ailə üzərində qələbə qazanmaq anlamına gəlmir.

**Nəticə və çağırış:**

Media – ya dəyər aşılayar, ya dəyəri məhv edər. Biz ailəni, qadını, gələcək nəsli qorumaq istəyiriksə, ilk olaraq ekranlarımızı və efirlərimizi təmizləməliyik. Ailənin sirrini qorumağı öyrətməliyik, qadınlara təkcə "azad ol" deməməli, "dəyərlərinlə birgə azad ol" deməyi bacarmalıyıq. Və ən önəmlisi, reytinq naminə ailəni qurban verməməliyik.

# Sülh və ədalət axtarışı

## Azərbaycan Prezidentinin III Şuşa Qlobal Media Forumunda çıxışına sözardı...

***III Şuşa Qlobal Media Forumu bir çox hadisələri ilə yadda qaldı. Xüsusən də Azərbaycan Prezidenti İlham Əliyevin müxtəlif mövzularla bağlı jurnalistlərin veridyi sualları cavablandırması dünyanın diqqətini öz üzərinə cəmləməkdədir. Rusiya mətbuatı da Forumun gedişatını işıqlandırmağa çalışıb, amma məsələyə özünəməxsus şəkildə yanaşıb və öz çıxarlarını axtarmağa cəhd edib. Ötən ilin dekabrında AZAL-ın təyyarəsinin qəzaya uğraması ilə bağlı verilən suala Prezidentin cavabı Rusiyanı məsələyə obyektiv yanaşmaya sövq etmək əvəzinə müxtəlif bəhanələrə müraciət etməsi heç də normal qarşılanmayıb. Azərbaycanın mövqeyini bir daha təkrarlayan Prezident İlham Əliyev əks təqdirdə Rusiyanı beynəlxalq məhkəmələrə vermək niyyətini açıqlayıb. Buna isə Rusiya tərəfi “Bakı qarşıdurmanın səviyyəsini kəskin artırıb”, kimi münasibət bildirib.***

Forumda çıxışı zamanı İlham Əliyev həmçinin Ukraynaya “işğalla razılaşmamağı” tövsiyə edib. Rusiya mediası yenə də təhriflərə yol verərək Prezidentin çıxışını “Rusiya ilə münasibətlərin kəskin şəkildə pisləşməsi” kimi yozub. Guya Bakı Donald Trampı Ermənistanla danışıqlarda vasitəçiliyə dəvət edir və ABŞ-la “tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi üçün böyük potensial” olduğunu bəyan edir. Halbuki, Ermənistanla son 3 ildə aparılan danışıqlarda heç bir üçüncü tərəf bu prosesdə vasitəçilik etmir və buna lazım da bilinmir. ATƏT-in qondarma Minsk qrupunun 26 il ərzində heç bir faydalı iş görə bilmədiyini bütün dünya öz gözləri ilə gördü. Amma qısa müddət ərzində Azərbaycanın birbaşa moderatorluğu ilə Ermənistanla Azərbaycan arasında çox məhsuldar danışıqlar olub və hətta sülh danışıqlarının məntiqi sonluqla başa çatacağı müddət də uzaqda deyil. Bəli, bütün bunlar vasitəşilərsiz, heç bir “maraqlı üçüncü qüvvə”nin olmadığı bir formatda baş tutub.

Rusiya mətbuatı ikitərəfli münasibətlərin hər keçən gün mənfiyə doğru hərəkət etdiyinə işarə vuraraq yaxın tariximizdə olub-keçənləri xatırlayırlar: Bir ildən az əvvəl, 2024-cü ilin avqustunda Vladimir Putinin Bakıya səfəri zamanı Rusiya və Azərbaycan prezidentləri İlham Əliyevin qara “Mersedes”ində birlikdə şəhəri geziblər. Görünür, o zaman onlar təsəvvür etmirdilər ki, çox tezliklə Rusiya-Azərbaycan münasibətləri o vaxt müəyyən edilmiş kursdan çıxacaq.

### Azərbaycanın haqlı tələbi və...

Azərbaycan Prezidentinin iyulun 19-da III Şuşa Qlobal Media Forumunun açılışı ərəfəsində dünya mediasının nümayəndələri ilə söhbəti bu ilin əvvəlindən Bakının siyasətində baş verən köklü dəyişiklikləri nümayiş etdirdi. Bu dəyişikliklər 2024-cü il dekabrın 25-də Rusiya hava məkanında baş vermiş insidentdən sonra Bakıdan Qroznıya uçan, şəhər üzərində olarkən hava hücumundan müdafiə qüvvələri tərəfindən vurulan, yaxın aeroportların heç birinin qəbul etmədiyi, əksinə hava gəmisini Xəzər dənizinə tərəf yönləndirilən və Qazaxıstanın qərbində Aktau şəhəri yaxınlığında qəzaya uğrayan “Azərbaycan Hava Yolları”na məxsus “Embraer 190” təyyarəsi ilə faciəvi qəzadan sonra davamlı olaraq pisləşən Rusiya ilə müttəfiqlik münasibətlərinə ən çox təsir edib.

İlham Əliyev Xankəndində jurnalistlərlə söhbəti zamanı bəyan edib ki, Bakı artıq “Embraer 190” təyyarəsinin qəzaya uğraması ilə bağlı araşdırmanın nəticələrinin Moskvanın açıqlanmasını gözləmək niyyətində deyil və Rusiyaya qarşı beynəlxalq məhkəmələrdə iddia qaldıraraq problemin həlli yollarını axtarmağı planlaşdırır. ”Azərbaycanın Baş prokuroru Rusiya İstintaq Komitəsinin rəhbərinə sorğular göndərir, lakin cavabında yalnız ”istintaq davam edir” ifadəsi gəlir. Belə mövqe əks-məhsuldardır. Azərbaycan sənədləri beynəlxalq məhkəmələrə təqdim etmək niyyətindədir”, - İlham Əliyev deyib. O, həmçinin bəyan edib ki, Bakı Azərbaycan Hava Yollarının təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların və yaralananların ailələrinə təzminat ödənilməsində israrlıdır.

Xatırladaq ki, təyyarənin göyərtəsində 62 sərnişin və 5 ekipaj üzvü olub. Qazaxıstan Fövqəladə Hallar Nazirliyinin məlumatına görə, 9-u rus olmaqla 29 nəfər sağ qalıb. Ümumilikdə, siyahılara görə, təyyarədə 16 Rusiya vətəndaşı olub. Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev daha əvvəl bildirmişdi ki, təyyarə kənardan müdaxiləyə məruz qalıb. Federasiya Şurasının sədri Valentina Matviyenko martın 17-də Bakıda səfərdə olarkən prezident Əliyevlə görüşündə “Azərbaycan Hava Yolları” QSC-nin təyyarəsinin qəzaya uğraması ilə bağlı əmin edib ki, bu məsələ Rusiyanın istintaq orqanları tərəfindən araşdırılır və hadisəyə obyektiv qiymət veriləcək. Lakin o vaxtdan Moskva ilə Bakının münasibətlərində əsas qıcıqlandırıcıya çevrilən problemin həlli yolu tapılmayıb.





### ”Heç vaxt təslim olmamaq!”

Rusiya mətbuatı yazır ki, “İlham Əliyevin ikinci rezonans doğuran bəyanatı Ukrayna böhranı ilə bağlı olub. Kiyevə hansı məsləhəti verə biləcəyini soruşduqda Azərbaycan Prezidenti ilk dəfə açıq şəkildə Ukraynanın tərəfini tutdu, Rusiyanın hərəkətləri ilə bağlı iki dəfə “işğal” sözünü işlədib”. Əvvəla, Rusiya mətbuatının yazdıqları tamamilə cəfəngiyyat və yalandır. Azərbaycan Prezidenti çıxışının bir yerində də Rusiyanın adını çəkməyib. Bunu sübut etmək üçün Prezidentin artıq bütün dünya mediasında yayılmış çıxışını bir daha izləsinlər. Prezident deyir: “Heç vaxt təslim olmamaq və heç vaxt ərazi bütövlüyünün pozulması ilə barışmamaq. Baxın, Özbəkistandan olan dostumuz atam haqqında sual verdi. Bilirsiniz, o da bizim hamımız kimi bu günü - Qarabağa qayıtdığımız günü görmək istəyirdi. Amma bu, ona nəsib olmadı. Bu əraziləri azad etməzdən əvvəl mən 17 il Prezident olmuşam. Əgər imkan yaranmasaydı, bəlkə də daha 17 il gözləyəcəkdik. Burada məsələ mənlik deyil. Hesab edirəm ki, bu da ukraynalılar üçün vacibdir. Məsələ şəxsiyyətdə deyil, məsələ ambisiyada deyil. Məsələ ondadır ki, bizdən əvvəl yaşamış nəsillər və bizdən sonra yaşayacaq nəsillər qarşısında məsuliyyət hiss etməliyik. Əgər bilsəydim ki, torpaqları geri qaytara bilməyəcəyik, biz bəlkə də daha 17 il gözləyəcəkdik, sonra yenə 17 il. O zaman artıq mən olmayacaqdım və bu, vacib olmayacaqdı. Mən mənəvi baxımdan hazır idim ki, bunu kimsə başqa biri edəcək. Amma başa düşürdüm ki, əgər mən etməsəm, yəqin ki, bunu heç kim edə bilməz. Bu, bəlkə də çox iddialı səslənə bilər, amma bu, sadəcə, mənim fikirləşdiyim idi və xatirələrimi bölüşürəm. Daha bir son fikir. Ədalətə inamım demək olar ki, itmişdi, keçmiş köçkün vətəndaşlarımız kimi. Onlarla daim görüşür və deyirdim ki, ”inanın, biz qayıdacağıq”. Amma hər il onların gözlərində inamın azaldığını görürdüm. Axı, gözlər hər şeyi deyir. Onlar mənə deyə bilərlər ki, bəli, inanırıq, amma gözlər hər şeyi deyir. Mənim də inamım az idi, ədalətə inamım. Amma bizim Qələbəmiz, – bu, ədalətli və tam qələbədir, – göstərdi ki, ədalət var, sadəcə, ona nail olmaq lazımdır. Bu ədaləti əldə etmək üçün hər gün işləmək, hər gün qələbəyə yaxınlaşmaq lazımdır. Əgər son qərar səndən asılıdırsa, həyatını bu işə həsr etməlisən. Yalnız bu halda bu, baş verə bilər. Əlbəttə, ən vacib amil cəmiyyətin həmrəyliyidir. Həmrəyliyin Prezident, Ali Baş Komandan olaraq mənə verdiyi mənəvi güc çox böyük idi. Əmin idim ki, xalq mənim arxamda dayanacaq. Bu da yəqin ki, həlledici amillərdən biri oldu. Odur ki, əvvəldə dediyimə qayıdıram – heç vaxt təslim olmamaq!”.

Bəli, ”Ukrayna işğalla razılaşmamalıdır. Hesab edirəm ki, bu, işğala dözməyə hazır olmayan Ukrayna xalqının istəklərinə uyğundur. Bu, əsas məsləhətdir. Biz də belə etdik”, - deyə İlham Əliyev rəsmi Kiyevi Qarabağın hərbi yolla qaytarılmasına nail olmuş Azərbaycanın təcrübəsindən istifadə etməyə çağırıb. Prezident Əliyevin bəyanatlarına əsasən, ikinci Qarabağ müharibəsinin başa çatmasına və 2020-ci ilin noyabrında üçtərəfli sülh bəyanatının imzalanmasına Rusiya prezidenti Vladimir Putinin səyləri nəticəsində nail olunmasına baxmayaraq, Bakı artıq Moskvaya İrəvanla sülh danışıqları üçün vasitəçi və platforma kimi baxmır. Hazırkı mərhələdə Ermənistan-Azərbaycan nizamlanmasının perspektivlərindən danışan İlham Əliyev deyib ki, Bakı və İrəvan sülh müqaviləsi imzalamağa çox yaxındırlar. “Sazişin mətni əvvəlcədən paraflana bilər və Azərbaycan tərəfi artıq Əbu-Dabidə belə bir təkliflə çıxış edib”, - deyən o, əlavə edib ki, “sülh müqaviləsi iki məsələnin həllindən dərhal sonra imzalana bilər: Ermənistan konstitusiyasına dəyişiklik edilməsi və ATƏT-in Minsk Qrupunun buraxılması”.

### Trampın sülhməramlı rolu

Rusiya mediasını narazı salan başqa bir məqam: İlham Əliyev bir dəfə də olsun Moskvanın Cənubi Qafqazda nizamlanma yolunun tapılmasındakı rolunu qeyd etmədən birdən-birə bu yaxınlara qədər regiona gözə çarpan maraq göstərməyən prezident Trampın sülhməramlı rolundan danışdı.

İlham Əliyev III Şuşa Qlobal Media Forumunun iştirakçılarını əmin edib: ”Biz ABŞ Prezidenti Donald Trampa Azərbaycan və Ermənistanın nəhayət razılığa gəlməsinə kömək etmək istəyinə görə çox minnətdarıq. O, beynəlxalq təhlükəsizliklə bağlı daha qlobal məsələlərlə məşğul olmasına baxmayaraq, Cənubi Qafqazdakı vəziyyəti də öz baxışlarında saxlayır. O, Ermənistanla Azərbaycan arasında uzanan münaqişənin yekun həlli üçün böyük işlər görür. Düşünürəm ki, biz gələcəkdə daha da yaxşı xəbərlər eşidəcəyik”, - İlham Əliyev Donald Tramp haqqında danışaraq davam edib: ”Bu gün biz ABŞ-la tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi üçün böyük potensial görürük. Biz Vaşinqtondan müsbət siqnallar alırıq. Buna cavab olaraq Azərbaycan da çox müsbət siqnallar göndərir. Bizim tərəfdaşlığımız zəngin tarixə malikdir”.

***V.VƏLİYEV***

RAKURS

# Tolerantlıq üzrə dünyada model ölkə

***Tolerant mühitin, multikultural dəyərlərin məkanına çevrilən Azərbaycan özünəməxsus xoşməramlı mesajlarını dünya ölkələrinə göndərir. Bu mesajlarda dinlərin və etnik qrupların nümayəndələrinin birgə yaşaması və ölkəmizin uğurlu inkişafına birgə töhfələr verən mövcud mühit öz əksini tapır. Azərbaycandakı multikulturalizm mühiti müxtəlif xalqların və etnik qrupların dilinin, dininin və ümumilikdə mənəvi mədəniyyətinin inkişafına geniş imkanlar yaradır. Azərbaycanda tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun olaraq möhkəmlənib, dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Odlar diyarının "tolerant ölkədən tolerant dünyaya doğru" şüarını reallaşdırılmasını özünün hədəfi kimi müəyyənləşdirməsi də əbəs deyil.***



”Biz azərbaycanlılar islam dini ilə fəxr edərək, eyni zamanda heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik”, - deyən Ulu Öndər Heydər Əliyev qeyd edirdi ki, Azərbaycanda islam dini ilə yanaşı xristian dini də, yəhudi dini də əsrlər boyu yaşayıb və indi də yaşayır: ”Qafqazda da bu mənzərə var. Hesab edirik ki, insanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, o dinlərin bəzən kiməsə xoş gəlməyən adət-ənənələrinə dözümlü olmalıdırlar”.

Bu gün Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti Cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində ölkəmizdə ictimai-siyasi sabitlik, milli-mənəvi birlik, multikultural və tolerant mühit formalaşıb. Bütün dinlərə hörmətlə yanaşaraq müxtəlif dinlərin məbədlərinə qayğı və diqqət göstərilir, o cümlədən dini ocaqlara məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir.





## “AZƏRBAYCANDA DİNİ SİYASƏT ÇOX DÜŞÜNÜLMÜŞ ŞƏKİLDƏ APARILIR VƏ AZƏRBAYCAN XALQININ MARAQLARINA CAVAB VERİR”

Azərbaycanda bütün dinlərin nümayəndələri qarşılıqlı hörmət və anlaşma, sülh şəraitində birgə yaşayır və Milli Məclisdə təmsil olunurlar. Ölkədə mövcud ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir. Azərbaycan müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant ölkəyə çevrilib. Bu gün ölkəmizdə 2200-dən artıq məscid mövcuddur, 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Bununla yanaşı, ölkə ərazisində 700-dən artıq pir və ziyarətgah fəaliyyət göstərir. Azərbaycan Prezidenti Cənab İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, Azərbaycan dünya miqyasında dinlərarası, millətlərarası münasibətlərin qurulmasında artıq nümunəvi ölkə kimi tanınır. Azərbaycanda multikulturalizm və tolerantlıq ənənələrinin mövcudluğunun nümunəsi kimi Qubada həmçinin dünya yəhudilərinin ən böyük icmalarından birinin yaşadığı məşhur Qırmızı Qəsəbəni göstərmək olar. Ümumiyyətlə, Quba çoxmillətli rayondur, burada 20-dən artıq azsaylı xalq yaşayır. Onların 79 faizini azərbaycanlılar, 9 faizini tatlar, 6 faizini ləzgilər, 1,8 faizini yəhudilər, 1,4 faizini türklər, 1,4 faizini xınalıqlılar və 1,2 faizini digər xalqların nümayəndələri təşkil edir. Qubadakı Qırmızı Qəsəbədə çayın bir sahilində sinaqoqlar, o biri sahilində məscidlər fəaliyyət göstərir. Bu fakt Azərbaycanda multikulturalizm və tolerantlıq ənənələrinin mövcudluğunun sübutudur. Şəhərin kənarında, Qudyalçayın sağ sahilində yerləşən bu qəsəbənin yəhudi sakinləri özlərini ”cuqur” adlandırırlar. Bu gün isə Qırmızı Qəsəbədə təxminən 4-5 min yəhudi yaşayır və sinaqoqlar fəaliyyətdədir. Əlbəttə ki, dünya ölkələri üçün nümunəyə çevrilən Azərbaycanda həm məscidlərimiz, həm də qeyri-xalqların dini abidələri qorunur, abadlaşır.

”Azərbaycanda bütün dinlərin tarixi-dini abidələri qorunur, bərpa edilir, tikilir. Bu, bir daha onu göstərir ki, Azərbaycanda dini siyasət çox düşünülmüş şəkildə aparılır və Azərbaycan xalqının maraqlarına cavab verir”, deyən dövlət başçısı real mənzərəyə əsaslanaraq bu fikirləri söyləyir. Ölkəmizdə abadlaşdırılmış Pravoslav Dini-Mədəni Mərkəzi, Katolik məbədi, İmamzadə kompleksi, möhtəşəm Heydər Məscidi Azərbaycanda olan mühitin təzahürüdür. Bütün bunlarla yanaşı, Rus Pravoslav Baş Kafedral Kilsəsi, ”Xilaskar” Yevangelik-lüteran kilsəsi, Gəncədəki Aleksandr Nevski Rus Pravoslav Kilsəsi dövlət tərəfindən təmir olunub, Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzi inşa edilib. Bundan əlavə, Qəbələdəki Çotari alban-udi və Bakıdakı Pravoslav kilsələrinin təmiri, Bakıdakı Müqəddəs Məryəm kilsəsinin inşası Heydər Əliyev Fondunun ”Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində reallaşdırılıb. O cümlədən, Qəbələnin Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana alban kilsəsi Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə bərpa edilib. Azərbaycan təkcə ölkə daxilində deyil, dünya miqyasında da xristian irsinin qorunmasına töhfələr verib. Ölkəmizin dəstəyi ilə Vatikanda yerləşən Müqəddəs Sebastian katakombalarının, Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında imzalanmış ”Roma katakombalarının bərpasına dair ikitərəfli Saziş” çərçivəsində Roma şəhərində Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpası və s. ölkəmizin dini tolerantlığının nümunəsidir. Azərbaycanın həyata keçirdiyi layihələr sırasında Azərbaycan Prezidentinin yardımı sayəsində Vladiqafqazda yenidən bərpa edilmiş Muxtarov məscidini də vurğulamaq yerinə düşər. Ölkəmizdə olan çoxsaylı xristian icması cəmiyyətimizin ayrılmaz və fəal hissəsidir, onların abidələri və ibadət yerləri, kilsələr Azərbaycan dövləti tərəfindən tam mühafizə edilir və mütəmadi olaraq bərpa edilir. Təsadüfi deyil ki, Roma Papası Fransisk 2016-cı ilin oktyabr ayında respublikamıza səfəri zamanı Azərbaycanı dini tolerantlıq üzrə dünyada model ölkə kimi qiymətləndirmişdi. Bütün bunlarla yanaşı, Bakı şəhərinin mərkəzində Azərbaycan dövləti tərəfindən erməni kilsəsi bərpa edilib. Çox təəssüfedici haldır ki, maddi-mədəniyyət abidələrinin zənginliyi ilə seçilən Qarabağ bölgəsinin Ermənistan tərəfindən işğalı nəticəsində İslam mədəniyyətinə aid olan bütün abidələr dağıdılıb. İşğal altındakı torpaqlarımızda təqribən 403 tarixi dini abidə olub ki, onlardan 67-i məscid, 144-ü məbəd, 192-i ziyarətgahdır. Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Əslində, ermənilərin etdikləri yalnız Azərbaycana qarşı yönəlməyib. Bu, bəşər mədəniyyətinə qarşı vəhşilik və təxribatdır.

Ermənilər daha bir əxlaqsızlıq nümayiş etdirərək, Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla öz iyrənc simalarını göstəriblər. İrəvandakı Dəmirbulaq məscidi yer üzündən silinib.

Bildiyimiz kimi, Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlanılıb və bir çoxu artıq istifadəyə verilib.

Bu gün Azərbaycanda dinlər arasında yaranan dözümlülük və tolerantlıq münasibətləri bütün dünya ölkələri üçün nümunədir.

**_Nəzakət ƏLƏDDİNQIZI_**

TƏHLİL



# “Ermənistan başa düşür ki, onun Azərbaycanla sülh sazişindən başqa gedəcək yeri yoxdur”



*Politoloq Aleksandr Razuvayev “Moskva-Baku” portalına müsahibəsində Ermənistanın baş naziri Nikol Paşinyanın xarici və daxili siyasətin ən aktual məsələlərinə dair geniş mətbuat konfransında tezislərini təhlil edib. Müsahibəni oxucularımıza təqdim edirik.*



**- Aleksandr Yuryeviç, bu günlərdə Ermənistanın baş naziri böyük mətbuat konfransı keçirib, o, daxili və xarici siyasətin aktual mövzuları ilə bağlı sualları cavablandırıb. Azərbaycan, Türkiyə ilə sülh yolu ilə nizamlanma mövzusuna, kilsə ətrafındakı vəziyyətə, müxalifətə, Rusiya və Aİ ilə münasibətlərə, KTMT-də perspektivlərə böyük diqqət yetirilib. Paşinyanın cavablarını necə şərh edə bilərsiniz?**

- Təbii ki, mətbuat konfransında gələn il ölkədə keçiriləcək parlament seçkiləri ərəfəsində Ermənistan hakimiyyətinin müxtəlif aktual məsələlərlə bağlı mövqeyi açıqlandı. Deyə bilərik ki, Paşinyanın suallara cavabları seçki kampaniyasının başlanğıcı və proqramının konturudur. Proqram açıq şəkildə bütün tarixi təməlin, o cümlədən Ermənistanın əvvəlki hakimiyyətinin dövlətin inkişafında və onun perspektivlərində, gələcəyində arxalandığı qonşularla münaqişələr məsələsinə yenidən baxılmasına əsaslanır. Paşinyan yanaşmanı kökündən dəyişir və deyir ki, “tarixi” Ermənistan “əsl” Ermənistanla əvəzlənib. O, əhaliyə təklif edir, siyasi texnologiya sxemləri çərçivəsində Ermənistanın tarixində yeni səhifə açmağı təklif edir. Və o, mətbuat konfransında öz əksini tapmış seçki proqramında qonşularla sülh xəritəsindən istifadə edir.

Paşinyanın artıq variantları yoxdur. Və məhz bu köklü yeni yanaşma-qonşularla düşmənçiliyi və onlara qarşı millətçi iddiaları davam etdirmək deyil, onlarla münasibətləri yaxşılaşdırmaq onun konsepsiyasına görə, Ermənistan əhalisinin firavan iqtisadi həyatını da yaxşılaşdırmalıdır və indiki baş naziri bir neçə ildir ölkənin siyasi arenasında fərqləndirir. Ermənistanın indiki baş naziri başa düşür ki, onun başqa variantı və gedəcək yeri olmadığı üçün Azərbaycanla sülh sazişinin imzalanması Ermənistana iqtisadi səmərə verə bilər və yeri gəlmişkən, bir iş çərçivəsində Avropa İttifaqına daxil olmaq şansını artıra bilər.

Paşinyan Ermənistanın siyasətini dəyişmək və onu Azərbaycanla, Türkiyə ilə barışığa yönəltmək qərarına gəlib, deyəsən, Azərbaycan və Türkiyə Ermənistanın düşmənləri olması haqda başqa cür düşünmək cəhdlərinin qarşısını alır.

İrəvan sülh sazişi imzalasa, Azərbaycanla münasibətləri normallaşdırsa, bu, Ermənistan üçün çox faydalı olacaq. Qonşuların dost olması lazımdır, bu, Ermənistan iqtisadiyyatına müsbət təsir edəcək. Hazırkı baş nazirin mətbuat konfransında verdiyi açıqlamalar gələn il keçiriləcək parlament seçkiləri prizmasından səslənib. Deyə bilərik ki, Paşinyan artıq seçki kampaniyasına başlayıb.

Azərbaycan və Ermənistan liderləri arasında birbaşa dialoqun olması artıq yaxşıdır. Əbu-Dabi kimi çox saatlıq birbaşa görüşlərin olması çox mühüm irəliləyişdir. Və əminəm ki, gündəliyə Azərbaycana qarşı ərazi iddialarının Ermənistan Konstitusiyasından çıxarılmasına yönəlmiş hərəkət daxildir.

Gördüyümüz kimi, Paşinyan yüksək səslə və konseptual bəyanat verdi: o, Ermənistanın Qarabağı Azərbaycan ərazisi kimi gec tanımasını səhv kimi qəbul edir. Əgər bu etiraf daha əvvəl olsaydı, bəlkə də Ermənistan özü üçün daha rahat şərtlərlə danışıqlar apardı. Amma onlara dəfələrlə bu şərtlər təklif olunub. Və həmin Paşinyanın özü həllin belə deyil, fərqli şəraitdə olduğuna inanırdı.

İndi indiki baş nazir vəziyyəti dərk edib və ona yenidən baxıb, bununla bağlı Azərbaycana və dünyaya siqnal verir: biz Bakı ilə, Ankara ilə dost olmaq istəyirik.

**- Ermənistan hökumətinin başçısı mətbuat konfransında bildirdi ki, Rusiya ilə münasibətlər əvvəlki kimi olmayacaq. Onun sözlərinə görə, bu o demək deyil ki, münasibətlər pis olacaqlar. O, həmçinin qeyd edib ki, Ermənistan blokda iştirakını dayandırmaqdansa, KTMT-dən çıxmağı üstün tutur. Bütün bunlara əlavə olaraq Ermənistanın 20 ildən sonra Avropa İttifaqına daxil olacağı bəyanatı da var...**

- Deyə bilərik ki, Paşinyan Ermənistanın hansı istiqamətdə getdiyini bir daha nümayiş etdirdi. Bu, çox yavaş, lakin özlüyündə bir sondur. Paşinyan bu siyasəti ilə erməni cəmiyyətini ona lazım olan istiqamətdə formalaşdırır, amma bunu xüsusi diqqətlə edir. İnsanlara hər gün eyni şey deyilirsə, buna öyrəşirlər.

*Tərcümə - Elçin*



Elçin Bayramlı

# Qlobal su çatışmazlığı güclənir: Bizi nə gözləyir?

***Dünyada su problemi getdikcə kəskinləşir. Qlobal iqlim dəyişiklikləri və ekoloji proseslərin pozulması nəticəsində istiləşmə və quraqlıq artır, çaylar göllər quruyur, suya tələbat isə davamlı artır. Artıq bir sıra ölkələrdə ciddi problem yaranıb, hətta Yaxın Şərqdə və Şimali Afrikada transsərhəd çayların suyundan istifadədə narazılıqlar artıb, ölkələr müharibə həddinə gəlib.***

Azərbaycanda da bu sahədə vəziyyət ürəkaçan deyil və ciddi tədbirlər görülməsi vacibdir. Quraqlığın artacağı təqdirdə Azərbaycan ciddi su problemi gözlənilən ölkələr siyahısındadır. Digər ölkələrlə müqayisədə bizdə əraziyə və əhaliyə nisbətdə su ehtiyatlarının faiz göstəriciləri çox aşağıdır. Ölkənin şirin su ehtiyatlarının 70 faizə qədəri ölkə hüdudlarından kənarda formalaşır və transsərhəd çaylar vasitəsilə ölkəmizə daxil olur.

Bu isə o deməkdir ki, qlobal su böhranı dərinləşərsə, qonşu ölkələrdən gələn su mənbələrindən su götürmək mümkün olmaya bilər. Bu vəziyyətdə qonşu ölkələr transsərhəd çaylardakı su ehtiyatının hamısını özlərinə sərf edəcəklər, bu tərəfə bir qram da su keçməyəcək. Bu, çox ciddi strateji təhlükədir. Ona görə də su resurslarının qorunması, onlardan səmərəli istifadə, su mənbələrinin çirklənməsinə və qurumasına səbəb olan amillərin aradan qaldırılması vacibdir. Burada təkcə dövlətin yox, əhalinin də rolu son dərəcə əhəmiyyətlidir. Su israfçılığına yol verməməliyik.

2030-cu ilə qədər səhralaşma prosesinin güclənəcəyi, Bir çox çay və göllərin quruyacağı, su ehtiyatlarının azalacağı proqnozlaşdırılır. Son illərdə Kür və Araz çaylarının suyu minimuma qədər azalıb, bir çox kiçik çaylar və göllər quruyub. Xəzər dənizində də suyun səviyyəsi getdikcə aşağı düşür.

Ölkələr su qıtlığıyla bağlı müxtəlif tədbirlər görür, alternativ mənbələrdən istifadə edirlər. Çox sayda su anbarları yaradılır, artezianlar qurulur, bir yerdə artıq olan su mənbələrindən suyun az olduğu başqa ərazilərə kanallar çəkilir. Bir çox ölkələr dərinliklərdə yerləşən su hövzələrindən suyun çıxarılması üçün böyük layihələrin icrasına başlayır.

Eyni zamanda dəniz və okeanlardan götürülən sular duzsuzlaşdırılıb istifadə olunur. Bu proses kifayət qədər bahalı olsa da, qlobal su böhranından xilas olmağın alternativlərindən biridir. Azərbaycanda da pilot layihə kimi Xəzərin suyunu şirinləşdirmək üçün zavod yaradılıb. Amma bu suyun qiyməti digər mənbələrdən götürülən suya nisbətdə dəfələrlə baha başa gəlir.

Dövlət başçısının su təsərrüfatının effektiv idarə edilməsi, su ehtiyatlarından səmərəli istifadə, yeni su mənbələrinin yaradılması ilə bağlı sərəncamları var. Çaylar üzərində 60-a yaxın su anbarının tikilməsi nəzərdə tutulub. Bir neçə belə su anbarı artıq tikilib.

İmkan olan yerlərdə artezianlar vasitəsilə yer təkindəki sulardan istifadə etmək olar. Suvarmada qənaətcil texnologiyalara keçmək, damcı və çiləmə suvarma sistemlərindən istifadəni stimullaşdırmaq lazımdır. Bu texnologiyaların vasitəsilə əkin sahələrini azı 3-4 dəfə az su ilə daha effektiv suvarmaq mümkündür.

Su itkilərinin bir hissəsi də ötürücü kanallarda itirilir. Azərbaycanda su kanallarının ümumi uzunluğu 50 min kilometrdən çoxdur. Bunun 90 faizindən çoxu da torpaq kanallarıdır ki, onlarla ötürülən su torpağın alt qatlarına hopur və təyinat nöqtələrinə az bir hissəsi gedib çatır. Hamısı olmasa da, mümkün qədərini beton kanallarla əvəzləmək lazımdır. Bəzi yerlərdə isə borulardan istifadə etmək olar.

Su təsərrüfatının idarəetməsində ciddi problemlər var. Dünya üzrə ən çox su itkisi olan ölkələrdən biriyik. Dünya norması 5-6 faiz olduğu halda qeyri-effektiv idarəetmə səbəbindən bizdə su itkisi 30-40-faizdir.

Dövlət Su Ehtiyatları Agentliyi düzgün nəzarət sistemi yarada bilsə, problemlərin səbəblərini araşdırıb aradan qaldırsa özümüzü qlobal su böhranından sığortalaya bilərik.

İşğaldan azad olunan ərazilərdəki böyük su ehtiyatlarına çıxışımız yarandı. Ölkənin su ehtiyatlarının 25 faizi Qarabağ zonasındadır. Düzgün istifadə edə bilsək, su kanalları vasitəsilə həmin su ehtiyatlarından digər rayonlara da su ötürmək olar. Su qıtlığı aqrar sektorun sıradan çıxmasına, iqtisadi böhrana səbəb ola bilər. Nə qədər ki gec deyil, bu istiqamətdə ciddi və sürətli tədbirlər görülməlidir.




# Rusiya batır, başqalarını da...

***Dünyanın ən zəngin ölkəsi (bu, Rusiyadır) dünyanın müxtəlif qaynar nöqtələrində bilavasitə, yaxın qonşuları ilə birbaşa müharibələrə qoşulması şimal qonşumuzu dizə gətirib. Yəni, Rusiya artıq iqtisadi, siyasi, hərbi və hətta mənəvi cəhətdən çökür. Həm də, bu çöküşün geri dönüşü yoxdur. SSRİ-nin varisi olan bu ölkənin məhvə doğru iri addımlarla irəliləməsini hətta, qonşu Ermənistanda da təsdiq edirlər.***

Ermənilər yazırlar ki, Rusiya çökür, dağılır və tənəzzülə uğrayır. Belə olduğu halda onun yanında durmaq çox təhlükəlidir. Çünki yıxılsa Ermənistanı da çəkib özü ilə aparacaq. Ermənilər yazır: Bu, sadəcə bir növ heyrətamiz və sonsuz absurd teatrıdır. Rusiyada bütün ciddiliyi ilə, adlarını çəkməyə belə dəyməyən müxtəlif natiqlərin ağzı ilə bəyan edirlər ki, Ermənistan KTMT və Aİİ-dən uzaq addımlar atmaqla səhv edir. Və bu, təkcə Rusiyanın müstəqil dövlətlər üçün hər şeyi həll etməsi üçün adi olan imperiya üsulu ilə bağlı deyil.

Fakt odur ki, Rusiya özü də iqtisadiyyatda ciddi problemləri rəsmən etiraf edib: Federasiya Şurasının yuxarı palatası sərt qənaət rejiminə hazırlaşmağa çağırıb. Federasiya Şurasının rəhbəri Valentina Matviyenko fərdi vergi güzəştlərinin ləğvi, qeyri-rəsmi məşğulluğa qarşı mübarizənin gücləndirilməsi, özəlləşdirmə məsələsinə qayıtmaq məsələsinə baxmağı təklif edib. Əvvəllər Putinin "vizit kartı" olan müxtəlif milli layihələr də kəsilir. "Gələcək büdcələrin şüarı ciddi qənaət, hər rublun səmərəliliyi, hər rubla və regional büdcələrə nəzarətdir", - Matviyenko İnterfaks agentliyinə verdiyi müsahibəsində bunu deyib.

Rusiyanın 2025-ci il büdcəsində orduya və silah-sursat alınmasına 13,2 trilyon rubl, daha 3,45 trilyon rubl Daxili İşlər Nazirliyi, Rusiya Milli Qvardiyasının, İstintaq Komitəsinin və xüsusi xidmət orqanlarının büdcələrini əhatə edən "milli təhlükəsizlik" bəndi üzrə ayrılıb. Ümumiyyətlə, təhlükəsizlik orqanlarına xərclər Rusiya büdcəsinin 40%-nə çatır.

Qeyd edək ki, Matviyenkonun çıxışları Böyük Britaniyanın Aİ-nin ardınca Rusiya neftinin qiymət tavanını aşağı salmasından əvvəl edilib. Bəli, cümə günü Aİ Şurası elan etdi ki, Rusiyaya qarşı yeni sanksiyalar çərçivəsində Brüssel Rusiya neftinin qiymət tavanını dəyişdirmək və onun maksimum qiymətini bir barel üçün 60-dan 47,6 ABŞ dollarına endirmək üçün avtomatik mexanizm tətbiq edir. Sanksiyalar paketinə, həmçinin, Aİ-nin məlumatına görə, Rusiyanın kölgə donanmasının bir hissəsi olan 105 tanker üçün məhdudiyyətlər də var. Onlara Avropa limanlarına zəng etmək qadağan olunacaq və dəniz nəqliyyatı ilə bağlı xidmətlərə çıxışı məhdud olacaq. Ümumilikdə, hazırda 444 tanker Aİ-nin məhdudiyyətləri altındadır.

Bank sektorunda Aİ Rusiya Birbaşa İnvestisiya Fondu (RDIF) və onun sub-fondları və şirkətləri ilə hər hansı əməliyyatları qadağan etmək qərarına gəlib. Həmçinin Rusiyaya qarşı sanksiya tədbirlərinə mane olan üçüncü ölkənin maliyyə institutlarına və kriptovalyuta xidməti provayderlərinə qarşı



sanksiyaların tətbiqi üçün "məhdudiyyətin aşağı salınması" qərara alınıb.

Bundan başqa, bank-maliyyə sektorunda istifadə olunan proqram təminatının idarə edilməsi sistemləri və proqram təminatının satışı, təchizatı, ötürülməsi və ixracının qadağan edilməsi qərara alınıb. Bütün bunlar, şübhəsiz ki, Rusiya iqtisadiyyatının onsuz da ağır vəziyyətdə olan vəziyyətini daha da ağırlaşdıracaq. Rus oliqarxlarının, o cümlədən uzun illər toxunulmaz hesab edilənlərin də hücuma məruz qalması təəccüblü deyil.

Dövlət Dumasının İqtisadi Siyasət Komitəsinin sədr müavini Nikolay Arefyevin "Abzats"a müsahibəsində bildirdiyi kimi, təkcə ötən il rusiyalı milyarderlər "25 milyard dollar toplayıblar" və "əgər onların gəlir mənbələri milliləşdirilsə, bu pullar iqtisadi problemlərin həllinə kifayət edəcək".

Onların tam rus yalanı və senzura şəraitində etirafı Rusiya Federasiyasındakı böhranın dəhşətli miqyasının daha bir sübutudur. Amma əsas odur ki, Rusiyadakı ruslar artıq zibil qutularını gəzməyə başlayıb. Müharibə aludəçisi olan Putinə xərac verməkdən imtina edənlərə qarşı növbəti səs-küylü siyasi işlərlə bağlı xəbərlər gözləyirik.

Biz zəngin və məşhur rusların bir neçə dəfə düşdüyü pəncərələrə baxırıq. Tamaşa davam etməlidir. Yalnız bunu kənardan izləməyimiz daha düzgün olardı.

Çünki Rusiya dəfələrlə sübut edib ki, başq ölkələr üçün etibarlı tərəfdaş, heç müttəfiq də olmayıb və olmayacaq. Kreml həmişə müttəfiqlərinin heç yerə getməyəcəyinə inanıb. İndi isə nəinki Rusiya ilə eyni yolda olmadığını, həm də bu istiqamətdə konkret addımlar atmadığını deyəndə, Moskva isterikaya gedir. Eyni zamanda, bütün bunların ciddi olmadığına ümid bəsləyirlər. Qoy belə düşünsünlər. Biz öz yolumuzu seçmişik. Və bu, Rusiyadan uzaqlaşan yoldur.

***V.VƏLİYEV***

BAXIŞ BUCAĞI

# "Azərbaycanın Qarabağda keçirdiyi tədbirlərin və uğurların önəmi çox vacibdir"

***"Təbii ki, forumla bağlı təəssüratlarım çoxdur. Həm bir insan kimi, həm də uzun müddət sonra vətənə dönüb bu cür tədbirdə iştirak edən biri kimi deyə bilərəm ki, bu, mənim ikinci dəfə forumda iştirakım oldu. Əvvəlki dəfə Şuşada olmuşdum, indi isə Xankəndidə keçirilən tədbirdə iştirak etdim. Burada gördüyünüz kimi müxtəlif mövzular müzakirə olunur". Bu sözləri 3-cü Şuşa Qlobal Media Forumu zamanı SİA-ya açıqlamasında Ramiz Yunus deyib.***

Onun sözlərinə görə, bu forumda Amerika və Yaponiyadan tutmuş çoxsaylı ölkələrdən iştirakçılar var. Əlbəttə ki, bu, çox önəmli bir hadisədir. Uzun illər işğal altında olan tarixlərdə böyük bir əhəmiyyət daşıyır. 30 ilə yaxın müddətdə bütün dünya bu torpaqları diqqətlə izləyəcək və qeydə alacaq. Başqa cür baxdıqda, ev sahibi ölkə burada tədbirlər keçirdikcə imkan yaranır ki, biz də öz tərəfimizi göstərək. Bu, həm işlərimiz üçün vacibdir: "Əvvəllər vəziyyət necə idi? İndi baxın, görün, ev sahibi ölkə gəlib öz torpaqlarını geri aldı. Bu, əlbəttə, dünyada gedən prosesləri, informasiya müharibəsini də əhatə edir. Bu gün yeni texnologiyalardan istifadə etmək böyük əhəmiyyət kəsb edir. Biz də bunu daxildən nümayiş etdirməliyik. Bu, Azərbaycanın siyasətləri üçün və informasiya müharibəsində böyük önəm daşıyır. Mən hiss edirəm ki, bu cür tədbirlər nə qədər çox Qarabağda keçirilsə, Azərbaycan üçün bir o qədər də hədəflərə çatmaq asanlaşar.

Bu dünənki tədbirdə ən zəhmətkeşcə,




ən yaxşı suallardan biri olduğunu düşünürəm. Çünki həqiqətən də Azərbaycan bu günlərdə nümunədir. Həm hərbi müharibədə uğur qazanan ölkə kimi, həm də informasiya məkanında bizə baxın görün, necə imkanlar əldə etmişik və baxın görün, bu iki il ərzində işğal olunmuş əraziləri hansı vəziyyətə gətirib çıxarmışıq. Əlbəttə ki, bütün bu sahələrdə Azərbaycan çoxları üçün, xüsusən də Ukrayna üçün nümunə ola bilər. Buna görə də həmin sualın cavabını görürsünüz. Mən müqayisə üçün sizə iki yanaşma göstərmək istəyirəm. Amerikaların yanaşması belədir, mən Amerikadan gəlmişəm onlar bir vaxt Ukraynalılara təklif etdilər ki, barışın. Qərb onlara deyir: barışın, bunu qəbul edin, torpaqlarınızı itirdiyinizi qəbul edin. Bizə də 30 ilə yaxın müddətdə bunu deyirdilər. Amma Canan Prezident dünənlərdə dedi ki, əksinə, bununla barışmayın.

Görürsünüz, iki fərqli yanaşma var. Və barışmadıqda, sonunda uğur əldə etmək mümkündür. Cəmiyyət bu məsələdə, əlbəttə ki, öncül şəxslər bu sözləri dedikdə, onlar yanında millət də dayanır. Ona görə də çoxlu sahələrdə bu, həm millətdən, həm də öncül şəxslərdən asılıdır. Dünən Canan Prezidentin Ukraynalı jurnalist, mənim dostum Dmitri Qardona verdiyi məsləhət yerinə düşdü. İndi Ukraynalılar baxsınlar və Azərbaycandan nümunə götürsünlər".

***Ziya Hikmətoğlu***

# Sevinc içində kədər: hamiləlik depressiyası nədir?



***Hamiləlik depressiyası — qadının hamiləlik dövründə yaşadığı, əhval-ruhiyyədə davamlı eniş, ümidsizlik, həvəsizlik və enerjisizlik kimi əlamətlərlə müşayiət olunan psixi pozuntudur. Bu vəziyyət, doğum sonrası depressiyadan fərqli olaraq, hamiləlik zamanı (adətən birinci və ya üçüncü trimestrdə) baş verir və kifayət qədər ciddi təsirlərə malik ola bilər. SİA mövzu ilə bağlı araşdırma aparıb.***





### Yaranma səbəbləri

Hamiləlik depressiyası müxtəlif bioloji, psixoloji və sosial amillərin birgə təsiri ilə meydana çıxır. Əsas səbəblərə bunlar daxildir:

Hormonal dəyişikliklər: Estrogen və progesteron səviyyəsindəki kəskin dəyişikliklər beyində serotonin və dopamin kimi əhval-ruhiyyəyə təsir edən neyrotransmitterlərin fəaliyyətinə təsir göstərə bilər.

Əvvəlki psixi pozuntular: Daha öncə depressiya, narahatlıq pozuntuları və ya digər psixoloji problemlər yaşamış qadınlar daha risk altındadır.

Sosial dəstəyin olmaması: Yoldaşın, ailənin və ya dostların dəstəyinin zəif olması, qadının özünü tənha və yük altında hiss etməsinə səbəb ola bilər.

Maddi çətinliklər: İşsizlik, maddi sıxıntı



və gələcəkdə uşağın təminatına dair narahatlıqlar depressiyanı dərinləşdirə bilər.

Zorakılıq və ya travmatik təcrübələr: Keçmişdə və ya hamiləlik dövründə yaşanan fiziki və ya emosional zorakılıq, travmalar risk faktorudur. Hamiləliyin istənilməməsi: Planlaşdırılmamış və ya məcburi qəbul edilən hamiləliklərdə depressiya ehtimalı daha yüksəkdir.

### Əlamətləri

Hamiləlik depressiyasının əlamətləri klassik depressiya simptomlarına bənzər olsa da, bəzən hamiləlik əlamətləri ilə qarışa bilər. Ən çox rast gəlinən simptomlar:

- Davamlı kədər hissi, ümidsizlik
- Həyatdan həzz almamaq (anhedoniya)
- Əhvalın tez-tez dəyişməsi, əsəbilik
- Enerji azlığı, yorğunluq
- Yuxu pozuntuları (həddindən artıq yuxululuq və ya yuxusuzluq)
- İştahanın artması və ya azalması
- Konsentrasiya və qərarvermədə çətinlik
- Özünü dəyərsiz, günahkar hiss etmək
- Ölüm və ya intihar düşüncələri (ağır hallarda)

### Fəsadlar

Əgər hamiləlik depressiyası vaxtında tanınıb müalicə olunmazsa, həm ana, həm də döl üçün mənfi nəticələrə yol aça bilər:

- Hamilə qadında düzgün qidalanmama, həkim müayinələrini aksatma və özünə qayğıda azalma
- Erkən doğum riski
- Aşağı çəki ilə doğum
- Postpartum (doğum sonrası) depressiya riskinin artması
- Ana ilə uşaq arasında bağın zəifləməsi

### Diaqnostika

Hamiləlik depressiyasının diaqnozu psixoloji qiymətləndirmə, klinik müsahibələr və bəzi hallarda sorğu anketləri (məsələn, Edinburq Postnatal Depressiya Ölçəği) vasitəsilə qoyulur. Qiymətləndirməni adətən psixoloq və ya psixiatr aparır

### Müalicə üsulları

Hamiləlik dövründə aparılan müalicə ana və dölün sağlamlığını nəzərə alaraq xüsusi diqqətlə seçilir:

Psixoterapiya: Ən çox istifadə olunan üsullardan biridir. Koqnitiv-davranışçı terapiya (CBT) və ya psixodinamik terapiya effektivdir.

Dəstək qrupları: Hamilə qadınların bir-biri ilə təcrübə bölüşməsi, tənhalıq hissini azalda bilər.

Dərman müalicəsi: Ağır hallarda antidepresanlar təyin oluna bilər. Bəzi antidepresanlar hamiləlik dövründə nisbətən təhlükəsiz hesab olunur, lakin mütləq psixiatr nəzarətində olmalıdır.

Həyat tərzi dəyişiklikləri: Düzgün qidalanma, yüngül fiziki aktivlik (həkim məsləhəti ilə), stress idarəetmə texnikaları (nəfəs məşqləri, meditasiya) faydalı ola bilər.

### Qarşısının alınması yolları

- Hamiləlikdən öncə və ya erkən mərhələdə psixoloji qiymətləndirmə
- Hamiləlik dövründə müntəzəm psixoloji dəstək
- Ailə və sosial dəstəyin gücləndirilməsi
- Özünə qayğı vərdişlərinin inkişaf etdirilməsi
- Travma və zorakılıq hallarında erkən müdaxilə və yardım axtarışı

Hamiləlik depressiyası nadir və ya "utanılacaq" bir hal deyil, əksinə, minlərlə qadının yaşadığı real və müalicəolunan bir psixi pozuntudur. Bu səbəbdən qadınların özlərini günahkar hiss etmədən yardım istəmələri təşviq edilməlidir. Sağlam ana, sağlam uşaq və sağlam cəmiyyət üçün psixi sağlamlığa dair maarifləndirmə və erkən müdaxilə əsas şərtdir.

*Ayşən Vəli*

ARAŞDIRMA






# Qlobal silahlanma dövrü






## *Yaxud, fəlakətə aparan birbaşa yol*

***Silahlanma yarışı fəlakətə aparan birbaşa yoldur. Politoloqlar hesab edirlər ki, dünyada yeni toqquşmaların riski artır. Bu, ABŞ və Çin arasında və ya Avropa ilə Rusiya arasında açıq müharibə və ya bir sıra kiçik münaqişələr ola bilər. Dünya pasifizmi dəfn edir. Yaponiya kəskin dönüş edir və ÜDM-nin 2,3%-ni silaha xərcləmək niyyətindədir, Almaniya Avropanın ən güclü ordusunu yaratmağı vəd edir, Finlandiya isə neytrallıqdan əl çəkir.***

"Təhlükəsizlik dilemması" deyilən məsələ 1950-ci ildə Amerika mütəfəkkiri Con Hertz tərəfindən irəli sürülən realist beynəlxalq münasibətlər məktəbinin konsepsiyasıdır. Bir ölkə öz müdafiə qabiliyyətini artırmalı olduğuna qərar verir və bunun üçün daha çox silah istehsal etməyə başlayır, hərbi büdcəsini artırır və orduya daha çox əsgər cəlb edir. Çünki, qonşularını və strateji rəqiblərini təhlükə hiss edir. Onlar əmin ola bilmirlər ki, bu ölkə yalnız özünü müdafiə etmək istəyir və hücuma hazırlaşmır. Özləri yenidən silahlanmağa başlayırlar. Gərginliyin artmasına, toqquşmalara və nəhayət, müharibəyə səbəb olan bir spiral yaranır. Heç bir dövlət bu vəziyyətdən qalib kimi çıxmır.

Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SIPRI) direktoru Den Smit, El Periudico ilə müsahibədə "Tarixi araşdırma və son təcrübəmiz göstərir ki, yeni toqquşmaların riski artır. Ola bilsin ki, biz üçüncü dünya müharibəsini və ya ABŞ ilə Çin arasında və ya Avropa ilə Rusiya arasında açıq müharibəni yox, bir sıra daha kiçik münaqişələrin şahidi olacağıq. Hərbi xərclərin və silahların yayılmasının səviyyəsi əsas problemin göstəricisidir: ölkələr arasında artan inamsızlıq".

Ekspertin fikrincə, bu tsikl 2014-cü ildə Krımın və Donbasın şərq hissəsinin Rusiya tərəfindən ilhaqından sonra sürətlənməyə başlayıb. Hərbi xərclər bu onillikdə artıb. Eyni zamanda, silahların yayılmasına nəzarət üzrə Rusiya-Amerika müqavilələri böhran mərhələsinə qədəm qoyub və praktiki fəaliyyətini dayandırıb. Beynəlxalq silahlara nəzarət müqavilələrinə onları imzalayan ölkələr məhəl qoymur. Eyni zamanda, beynəlxalq hüququn (Rusiya və Ukrayna) və milli suverenlik (Qrenlandiyada ABŞ) və beynəlxalq humanitar hüquq (Qəzzada İsrail) kimi əsas prinsiplərin pozulmasının həyəcanverici əlamətləri var.

"Biz son on ildə Şərqi Avropadakı gərginliyin səbəb olduğu yenidən silahlanmanın sürətləndirilməsindən son bir ildə, xüsusən də Qərbdə hiper-sürətlənməyə keçdik. ABŞ-da və transatlantik münasibətlərdə dəyişikliklər oldu", - Dan Smit deyir. Əlavə edir ki, "Birləşmiş Ştatların təhlükəsizlik qarantı kimi etibarlılığına dair şübhələr Rusiya neo-imperializminə bərabər və ya ondan çox təzyiq göstərir".

### Dünya yenidən silahlanır

Yaponiya İkinci Dünya Müharibəsində məğlub olduqdan sonra onu xarakterizə edən sülhsevər siyasətdən əl çəkib. Tokio 2027-ci ilə qədər hərbi xərclərini illik ÜDM-nin 2,3%-nə qədər artıracağını açıqlayıb. Yapon hökuməti bunu bütün dünya kimi "tarixi dönüş nöqtəsi" ilə üzləşməli olduğunu, xüsusən də Çinin düşmən ekspansionizmi gücləndirməsi ilə əsaslandırır.

Finlandiya 1939-1940-cı illərdə SSRİ ilə "Qış Müharibəsi"ndən sonra qəbul edilmiş ənənəvi neytral mövqeyindən əl çəkib və Rusiyanın mümkün təcavüzünə qarşı çəkindirici vasitə kimi NATO-ya qoşulub. Qərb qəzəblənib: Krım Rusiyanın işğalı altında belə gözəlləşib. Ukrayna isə buna bir qəpik də yatırmayıb. Almaniya öz nasist keçmişi ilə bağlı olan tarixi tabulardan əl çəkib və indi yüzlərlə milyard avroluq daimi sərmayələr sayəsində Avropanın ən güclü ordusunu yaratmağı vəd edir.

Rusiya hərbi istehsalı artırır ki, bu da artıq dövlət büdcəsinin 40%-ni təşkil edir. NATO ölkələri 2030-cu ilə qədər öz ÜDM-lərinin 5%-ni müdafiə və təhlükəsizliyə xərcləməyi öhdələrinə götürüblər. Nəyin bahasına olursa olsun. Britaniya artıq bu yenidən silahlanma xərclərini ödəmək üçün inkişaf fondlarını azaltmaq qərarına gəlib. Onu maliyyələşdirməyin yeganə yolu xərcləri azaltmaq, artımı artırmaq və ya vergiləri artırmaqdır.

### Bu dövrü necə dayandırmaq olar?

Sovet İttifaqı ilk nüvə qurğusunu 1949-cu ildə sınaqdan keçirdi və növbəti onilliyi təsirli nüvə raket arsenalının yaradılmasına sərf etdi. ABŞ da onun ardınca getdi. Beləliklə, Soyuq Müharibə başladı. 1962-ci ildə Birləşmiş Ştatlar SSRİ-nin müttəfiqi olan Kuba adasında nüvə raketləri yerləşdirdiyini öyrəndi və dəniz blokadası tətbiq etdi və Moskva bunu pozmağa çalışdı. Dünya III Dünya Müharibəsinin başlanğıcına çox yaxınlaşdı, bu dəfə nüvə bombaları ilə dişinə qədər silahlanmış iki düşmənlə.

1963-cü ildə uçurumun kənarında dayanan liderlər Con Kennedi və Nikita Xruşşov geri çəkilmək qərarına gəldilər. Onlar yarı yolda görüşdülər və nüvə sınaqlarını məhdudlaşdıran müqavilə imzaladılar. Nüvə döyüş başlıqlarının sayı sabitləşdi və nüvə silahlanma yarışı qısa müddətə dayandırıldı. Qarşılıqlı təminatlı məhv prinsipinə əsaslanan çəkindirmə iki böyük dövlət arasında birbaşa toqquşmanın qarşısını almağa imkan verdi. Bununla belə, milyonlarla insanın ölümünə səbəb olan onlarla proxy müharibəsi var idi: Vyetnam, Kamboca, Əfqanıstan...

### Üç hərbi dövr

Avstraliyanın Sidney şəhərində yerləşən İqtisadiyyat və Sülh İnstitutu (IEP) son üç geostrateji dövrü müəyyən edir. Birincisi, 1991-ci ildə Berlin divarının yıxılması və Sovet İttifaqının dağılması ilə başa çatan Soyuq Müharibə idi. Sonra təxminən 2008-ci ilə qədər davam edən qloballaşma dövrü gəldi. Çoxtərəfliliyin artması, maliyyə və ticarətdə irəliləyişlər və qlobal mobillik artdı.

O vaxtdan bəri hərbi xərclər artıb. Bu gün dünya müdafiəyə 2,5 trilyon avro xərcləyir ki, bu da İspaniyanın ÜDM-dən iki dəfə çoxdur. Hazırda dünyada 59 açıq münaqişə var ki, bu da İkinci Dünya Müharibəsindən sonra ən yüksək rəqəmdir. Demək olar ki, bu münaqişələrin heç biri sülh sazişi ilə yekunlaşmır. Əvvəllər bu rəqəm 25% təşkil edirdi; indi 4%-dir. Qalanları donmuş qalır, yenidən alovlanmağa hazırdır. Münaqişələr artır. Son altı ildə onların sayı yalnız 50 müharibə və ildə 150.000 ölümlə indiki zirvəyə yüksəlib. İqtisadi böhran və texnoloji tərəqqi ikinci dərəcəli dövlətlərin geosiyasi təsirinin güclənməsinə səbəb olub: Türkiyə, Hindistan, Pakistan, Avstraliya... Əvvəllər hər şey Təhlükəsizlik Şurasında beş və ya altı əsas ölkədən asılı idisə, indi bu, 30 və ya daha çox ölkədən asılıdır və vəziyyət getdikcə qeyri-sabit və gözlənilməz hala gəlir. Yüksək hərbiləşdirilmiş, lakin sülhsevər ölkələr və yüksək inkişaf etmiş silahlı qüvvələrin olmamasına baxmayaraq zorakılığın hökm sürdüyü ölkələr var.

Biz I və II Dünya Müharibələrinin timsalında görürük ki, iki yaxşı silahlanmış gücün çəkindirici qüvvə olduğu və heç vaxt toqquşmayacağı fikri yanlış idi. İndi, daha çoxqütblü dünyada, daha çox maraqların olduğu bir şəraitdə, yenidən silahlanmanın resepti var.

**V.VƏLİYEV**

ANALİTİK



# Belçikada islamofob və antitürk əhval-ruhiyyə hökm sürür

## Belçikada anti-Azərbaycan kampaniyası aparan KİV-ləri və QHT-ləri Belçika hakimiyyəti və Corc Soros maliyyələşdirir

***Azərbaycanın iqtisadi, sosial, siyasi, hərbi və digər sahələr üzrə gücünün artması, nüfuzunun yüksəlməsi bəzi xarici dövlətləri ciddi şəkil də narahat edir. Bu səbəbdən də, müxtəlif iyrənc vasitə və üsullardan istifadə etməklə görülən fundamental işlərə, qazanılan möhtəşəm uğurlara kölgə salmağa çalışırlar. Xüsusilə də bu cür çirkin kampaniyada Avropa İttifaqı və onun idarə edilməsində aktivlik nümayiş etdirən Fransa, Almaniya, Belçika, Niderland və digər ölkələr fəallıq nümayiş etdirdikləri görünür.***

Bu ölkələrinin başında isə Fransanın durduğu şübhəsizdir. Çünki Fransa Avropa İttifaqının formalaşan büdcəsinin böyük hissini maliyyələşdirən tərəfdir. Digər tərəfdən Avropadan kənarda müstəmləkəsi çox olan və həmin müstəmləkə altında saxladığı ərazilərdən milyardlarla avro maliyyə vəsaitlərini talayır ki, həmin vəsaitlərin bir qismi Avropa ölkələrinin qaranlıq işlərinə xərclənilir. Digər tərəfdən Fransanın Almaniya, Belçika, Lüksenburq, Niderland və digər ölkələrinin siyasi dairələrində, qanunverici orqanlarında təsir dairəsi yüksəkdir. İstənilən vaxt Fransanın dirijor çubuğu Avropa İttifaqına daxil olan bəzi ölkələrin siyasi hakimiyyətlərində istədikləri qərarı qəbul etdirə bilirlər. Bu o demək deyil ki, həmin ölkələr müstəqil deyillər və ya iqtisadi, siyasi cəhətdən Fransadan asılı vəziyyətdədir. Faşizmin əsas mərkəzi Almaniya olsa da, böyük dayaqlara və idarətetmə gücünə görə, Fransa Almaniyadan üstündür. Bu baxımdan bəzi Avropa ölkə başçıları ərazilərində rəsmi Parisin göstərişi ilə faşizmin geniş miqyaslı terror aktları, hətta dövlət çevrilişləri həyata keçirə biləcəyindən ehtiyat edirlər. Ona görə də, Parisdən onlara hansı dövləti hədəf seçmək barədə tapşırılar gəlsə dərhal onu icra edirlər. Misal üçün Avropa İttifaqına daxil olan bəzi ölkələrin Azərbaycanla bağlı vaxtaşırı qərəzli qətnamələr qəbul etməsi və ya ölkəmiz haqqında dezinformasiya xarakterli məlumatlara yaymalarını göstərmək olar. Səbəbi nədir, niyə Fransa, Almaniya, Belçika, Niderland və digər ölkələr Azərbaycanla bağlı şər və böhtan tipli məlumatlar yayırlar? Cavabı aydın və qısadır. Ölkəmiz 30 il erməni işğalı altında olmuş torpaqlarını azad edib. Azərbaycan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini özü həll edib, beynəlxalq hüquqi təmin edib. Buna görə dövlətlər Azərbaycana təşəkkür etməli, minnətdarlıqlarını ifadə etməlidirlər. Lakin Fransa başda olmaqla Almaniya, Belçika, və Niderland ermənipərəst mövqe sərgiləyir və Azərbaycanın haqq işinə xələl gətirməyə çalışırlar. Dərk etmirlər ki, hansı Avropa dövləti ərazisinin bir qarşının işğal edilməsinə razı olar?



Belçika Konstitusiya Məhkəməsinin hakimi Jan-Pol Murman çox haqlı fikir söyləyir və deyir: "Belçika razı ola bilərmi onun ərazisinin bir hissəsini Hollandiya zəbt etsin və qəsb etdiyi ərazidə öz qayda və qanunlarını tətbiq eləsin? Təbii ki, Belçika nəinki ərazisinin Hollandiya tərəfindən işğal edilməsinə, ümumilikdə torpaqlarında separatçı meyillərin baş qaldırılmasına razı olmaz. Holland mədəniyyətinə və xalqına bütün hörmətim daxilində sadə vətəndaş kimi mənə Hollandiyanın ölkəmə işğal etmək və mənim ölkəmin ərazisində hökumət qurmaq məqsədi ilə soxulması qətiyyən xoşuma gəlməzdi". Lakin Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi, Qarabağdakı separatçıları ləğv etməsi onların başlarına daş, qarınlarına azar doldurub. 5 ildir ki, dayanmadan Azərbaycanla bağlı şər və böhtan xarakterli iftiralar səsləndirir, qətnamələr qəbul edirlər. Bu azmış kimi ölkələrində və kənarda haqqı deyən, ədalətli mövqe ifadə edənlər təqib olunur, söyüşə, təhqirə məruz qalırlar.

Belçika Konstitusiya Məhkəməsinin hakimi Jan-Pol Murman hakimiyyət tərəfindən təqib olunur. Belçikanın və Avropanın bir sıra mətbu orqanları, saytları, o cümlədən Belçikanın "De Tijd", "L'Echo" qəzetləri, eləcə də RTBF, "La Capitale", "La Libre" nəşrləri onu təhqir edən məqalələr dərc edirlər. Nədən ki, hakim Jan-Pol Murman Xocalı soyqırımının Ermənistan tərəfindən törədildiyini, lakin bu illər ərzində təcavüzkarın cəzalandırılmadığını söyləyib. Qeyd edib ki, dünya ictimaiyyətinin Ermənistanın Xocalıda törətdiyi soyqırımı aktına laqeyd qalması insanlığa və bəşəriyyəti qarşı hörmətsizlikdir. Onun sözlərinə görə, dünya ictimaiyyətinin, beynəlxalq təşkilatların Ermənistanın Azərbaycan şəhəri olan Xocalıda törətdiyi soyqırımı aktına susması heç bir hüquqi və mənəvi çərçivəyə sığmır.

Jan-Pol Murmanın əsaslı, həqiqəti əks etdirən fikirləri Belçika hakimiyyətində çalxalanmalar yaradıb. Hakimiyyət ədalət çarçısını cəzalandırmaq üçün bir qrup kriminal dəstə tərəfindən evinin və avtomobilinin şüşələrini sındırtdırıb. Öyrədilmiş və təlimat almış QHT və KİV əməkdaşları hakimin şəxsiyyətini və ləyaqətini təhqir edən açıqlamalar yayır, şüarlar paylaşırlar. Hakim Jan-Pol Murman özünə qarşı həyata keçirilən repressiyanın arxasında Belçika hakimiyyətinin və Corc Soros Fondunun ayırdığı maliyyə yardımlarının dayandığını söyləyib. O "De Tijd" nəşrinə verdiyi müsahibədə bildirib ki, Belçikada antiAzərbaycan kampaniyası aparan 140 qeyri-hökumət təşkilatının hamısını Belçika hakimiyyəti və Corc Soros maliyyələşdirir.

### Mark Demesmaekerin və Mişel de Maegdin erməni lobbisinin sifarişlərini icra edirlər

Belçika o qeyri-demokratik dövlətlərdəndir ki, burada dini və irqi ayrı-seçkiliyə yol verilir. Xüsusilə də, islama qarşı və türkçülüyə qarşı yaramazlıqlara geniş xarakter daşıyır. İslamofobiyanın və antitürkün başında siyasi hakimiyyətin, eləcə də qanunverici orqanın bir sıra vəzifəli şəxsləri dayanır. Yeni Flamand İttifaqı Partiyasının (N-VA) üzvü Mark Demesmaekin və ermənipərəst deputat Mişel de Maegdin Belçikanın faşist ideologiyasının əsas simaları hesab olunurlar. Dəfələrlə bu məxluqlar Azərbaycana, Türkiyəyə, ümumilikdə islam dünyasına qarşı qarayaxma kampaniyası ilə çıxışı ediblər. Məhz bu günlər ölkənin Nümayəndələr Palatasının Azərbaycana qarşı rüsvayçı qərarın qəbul edilməsində Mark Demesmaekin və Mişel de Maegdin əhəmiyyətli rolları olmuşdur. İyulun 17 –də Belçika Nümayəndələr Palatasının Azərbaycanla bağlı qəbul etdiyi qətnamədə Azərbaycanın separatizmin ləğv edilməsi üçün Qarabağda keçirdiyi antiterror tədbirlərini təhrif edilir və ölkəmizə qarşı şər və böhtan xarakterli ittihamlar əks olunur. Nəzərə almaq lazımdır ki, islamofob və antitürk əhval-ruhiyyəli millətçi Yeni Flamand İttifaqı Partiyasının (N-VA) üzvü Mark Demesmaeker Brüsseldə əsas erməni lobbi təşkilatının rəhbəri Kaspar Karampetyan ilə sıx əməkdaşlıq edir və onun sifarişlərinə əsasən Azərbaycana qarşı qarayaxma kampaniyası aparır. Hətta bu üzdəniraq məxluq 2019-cu ilin oktyabr ayında Azərbaycanın işğal edilmiş ərazilərinə əfər edib, separatçılarla görüşlər keçirmişdir. Hətta Qarabağdakı separatçılara maliyyə və silah yardımları ediləcəyinə dair onlara vədlər vermişdir.

Separatçılar həbs olunduqdan sonrada Mark Demesmaeker onlara dəstəyini davam etdirir. Belçika Nümayəndələr Palatasının Azərbaycanla bağlı qəbul etdiyi qətnamə Mark Demesmaekerin və digərlərinin erməni diasporuna xidmətinin bir hissəsidir. Sənədin tam şəkildə əsas ittihamlardan ibarət olması bu məxluqların xüsusi təlimat və tapşırıq aldıqlarını göstərir.

Mark Demesmaeker və Mişel de Maegdin səyi ilə yazılan qətnamədə iddia olunur ki, guya Azərbaycan Qarabağda antiteror əməliyyatları həyata keçirməklə beynəlxalq hüquqi pozub. Halbuki, Azərbaycan həmin ərazidə öz suverenliyini bərpa edib və bu, BMT Nizamnaməsinə, beynəlxalq hüququn prinsiplərinə tam uyğundur. Haqlı olaraq Azərbaycan ictimaiyyəti, dövlət qurumları Belçika Nümayəndələr Palatasının erməni lobbisinin maraqlarına və uyğun qəbul edilən sənədə kəskin etirazını bildirir. Azərbaycan respublikasının Milli Məclisinin Belçika Nümayəndələr Palatasının qətnaməsinə münasibətində qeyd olunur ki, qətnamədə Azərbaycana qarşı irəli sürülən əsassız ittihamları qətiyyətlə rədd edir. Qeyd olunub ki, yoxlanılmamış, yanlış və birtərəfli məlumatlar üzərində qurulan bu sənədin müəllifləri son dövrdə Cənubi Qafqaz regionunda təşəkkül tapmış siyasi, hüquqi və humanitar şəraiti görməzdən gəlir, beynəlxalq hüquq prinsiplərinə və normalarına etinasızlıq göstərir, hər bir parlamentin rəhbər tutmalı olduğu ədalət və obyektivlik meyarlarını saya salmırlar: "Qətnamədə Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək kimi qanuni və suveren hüququ, əslində inkar edilir. Bildirilir ki, 2023-cü ilin sentyabrında Azərbaycanın həyata keçirdiyi antiterror əməliyyatı yalnız Qarabağ ərazisində fəaliyyət göstərən Ermənistan ordusunun qalıqlarına və qeyri-qanuni silahlı dəstələrə qarşı yönəlmişdi və beynəlxalq hüquqa tam uyğun idi. Bu əməliyyatın gedişində heç bir mülki şəxsə ziyan vurulmayıb, dini və ya mədəni abidələr zədələnməyib".

### Azərbaycan Milli Məclisinin Belçika Nümayəndələr Palatasına sərt cavabı

Sənəddə vurğulanıb ki, Belçika parlamenti üzvlərinin Azərbaycanı "müharibə cinayətlərində" və "insan hüquqlarının pozuntularında" ittiham etmək cəhdləri əsassızdır və siyasi motivlərlə bağlıdır: "Qətnamədə Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən 30 il ərzində işğal altında saxlanılmasının, bu dövrdə dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş çoxsaylı cinayətlərin, soyqırımı aktlarının, etnik təmizləmə nəticəsində 750 min azərbaycanlının öz vətənində didərgin salınmasının, şəhər və kəndlərimizin dağıdılmasının, milli, mədəni, dini və tarixi mirasımızın talan və təhqir edilməsinin üzərindən sükutla keçilib. Əvəzində isə öz torpağında sülhü və ədaləti bərqərar etməyə çalışan Azərbaycan haqsız hücumlara məruz qoyulub".

Qətnamənin "qanunsuz həbslər" ilə bağlı hissəsinə gəlincə, Azərbaycan parlamentinin münasibətində xatırladılıb ki, hazırda Bakıda məhkəmə istintaqına cəlb edilən erməni milliyyətli şəxslər Azərbaycan ərazisində hərbi təcavüz, müharibə cinayətləri, zorakılıqla yoxa çıxarma, işgəncə vermə, terrorçuluq və s. kimi cinayətlər törətməkdə təqsirləndirilirlər: "Onların müvafiq hüquqları təmin edilir, məhkəmə prosesi şəffaf aparılır və amansız rəftarla bağlı heç bir şikayət yoxdur. Bunun əksinə olan iddiaların irəli sürülməsi suveren dövlətin daxili işlərinə qarışmaqdan başqa bir şey deyil. Bu da təəssüflə qeyd edilməlidir ki, qətnamədə Ermənistandan kütləvi surətdə deportasiya edilmiş və ya zorla qovulmuş yüz minlərlə azərbaycanlının dinc yolla ata-baba torpaqlarına qayıtmaq hüququnu nəzərdə tutan "Qərbi Azərbaycan" anlayışı ilə bağlı təxribatçı və yanlış təfsirə yol verilmişdir. Bu anlayış tarixi yaddaşına sadiq olan xalqımızın haqq-ədalət istəyini ifadə edir və beynəlxalq hüquqa tam uyğundur. Qətnamədə bəyan edilmiş məqsədlərə zidd olaraq, bu sənəd sülh yaradılması səylərinə heç də kömək göstərmir. Son vaxtlar sülh gündəliyinin irəli aparılması üçün ciddi addımların atıldığı bir şəraitdə Belçika, İsveçrə kimi ölkələrin parlamentlərində, Avropa Parlamentində erməni diasporu ilə əlaqəsi olan qüvvələr sülh prosesini pozmağa, regionda yeni gərginlik ocağı yaratmağa çalışırlar".

Azərbaycan Milli Məclisi Belçika Nümayəndələr Palatasının üzvlərini obyektiv yanaşmaya əsaslanmayan bu cür sənədlərin qəbulu praktikasından əl çəkməyə, beynəlxalq hüquq prinsiplərinə və normalarına, regionun bütün xalqlarının hüquqlarına hörmətlə yanaşmağa, vəziyyəti gərginləşdirə bilən addımlardan çəkinməyə çağırıb.

Yəqin ki, bundan sonra Belçika siyasi hakimiyyəti və qanunverici orqanı özündə cəsarət tapıb, erməni lobbisinin göstərişlərinə və sifarişlərinə uyğun deyil, öz dövləti maraqlarına uyğun siyasət yürüdəcək. Bu hal həm də Belçikanın Fransanın vassalı deyil, müstəqil dövlət olduğunu nümayiş etdirəcək. Əgər gözləntilər özünü doğrultsa, Belçika dünya siyasətində özünə yer tuta biləcək, əks halda bu ölkə çırtdan ölkəyə çevriləcək, ən pis halda isə mövcudluğunu itirmək təhlükəsi ilə üz -üzə qalacaq.

**İLHAM ƏLİYEV**




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə " uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.***

# Beyin sağlamlığı: şərtlər və reallıq

***22 iyul Ümumdünya Beyin Günüdür. Bu tarix, beyin sağlamlığını təşviq etmək və nevroloji xəstəliklər barədə məlumatlılığı artırmaq məqsədi ilə Ümumdünya Nevrologiya Federasiyası tərəfindən təyin edilib.***

İnsan bədənindəki hər bir orqanın, hər toxumanın, hər hüceyrənin sağlamlıq baxımından əvəzsiz rolu var. Ancaq ən vacib olan yerimiz - beynimiz sağlam maddələrə -oksigen, vitaminlər, minerallar, qlükoza və s. ehtiyac duyur. Bütün bu ehtiyaclar, xüsusilə oksigen, fasiləsiz və lazımi səviyyədə təmin edilməlidir. Buna



deyilsə, digər orqanlarımızın sağlamlığının elə də böyük əhəmiyyəti yoxdur. Çünki bizim bədənimizi beynimiz idarə edir. Sağlam bir beyin bədənimizi məharətlə idarə etmək qabiliyyətinə malikdir. Beyin daim işlədikcə daha da itilənir, ustalaşır. İşləmək beynimizə çox şey qazandırır. Xüsusilə beynimizi gücə salan, fikirləşməyə, düşünməyə məcbur edən məşğuliyyətlərlə maraqlanmaq özümüzə edə biləcəyimiz ən böyük yaxşılıqdır. Çətin teoremlər, rebuslar həll etmək, yaradıcı ideyalar inkişaf etdirmək, ən çətin şeyləri yadda saxlamağa çalışmaq, yüksək diqqət tələb edən tapşırıqları yerinə yetirmək, cəld hesablamalar aparmaq, öyrənmək, şərh etmək, əsaslandırmaq, hər gün mütaliə etmək beynimizi aktiv saxlayan faktorlardır.

Beynimiz gündəlik həyatımızda qan vasitəsilə ötürülən çoxsaylı görə də beynimizin işləməsini dəstəkləyən qan dövranı, tənəffüs və digər sistemlərin düzgün işləməsi beyin sağlamlığımız üçün vacibdir. Beynin qüsursuz fəaliyyəti üçün oksigen həyati əhəmiyyət daşıyır, çünki beyin hüceyrələrinin enerji istehsalı və normal işləməsi bilavasitə oksigenə bağlıdır. Beyin bədənimizin yalnız 2-3%-ni təşkil etsə də, gündəlik oksigenin iethlakımızın təxminən 20%-ni istifadə edir. Çünki neyronların, yəni beyin hüceyrələrinin fəaliyyəti üçün adenozin trifosfat (ATP) adlı enerji molekulu lazımdır. Bu molekul yalnız oksigenlə oksidləşmə prosesində baş verir.

Beyin bir neçə dəqiqə oksigensiz qaldıqda hüceyrələr zədələnir və biz ölməyə başlayırıq. Əgər oksigen istehlakımız zəifləyirsə bizdə yaddaş zəifliyi, diqqət dağınıqlığı, reaksiya müddətinin uzanması, əhval-ruhiyyəmizin aşağı düşməsi baş verir. Bizim istehlak etdiyimiz oksigen ağciyərlər vasitəsilə qana keçir və eritrositlər onu beyinə daşıyır. Beyin damarlarında problem olduqda, məsələn, insult baş verirsə, oksigen çatışmazlığı yaranır və beyin toxuması məhv ola bilər.

Beynimizin ehtiyaclarını ödəmək üçün ən vacib amillərdən biri də düzgün qidalanmadır. Elə zənn edin ki, beynimiz bir motordur və onun qüsursuz işləməsi üçün keyfiyyətli yanacağı – yaxşı qidaya ehtiyacı var. Beynimiz bədənimizin sərf etdiyi gündəlik enerjinin 20-25%-nə sahibdir. Beyin fəaliyyətinin qaydasında olması üçün əsas enerji mənbəyi qlükozadır ki, bu da gündəlik qəbul etdiyimiz karbohidratlardan alınır. Amma çalışıb bu ehtiyacı şəkərli və emal olunmuş qidalardan yox, kompleks karbohidratlar –taxıl məhsullarından, tərəvəzlərdən almaq lazımdır.

Beynin funksiyalarının qüsursuz işləməsi üçün Omega-3 yağ turşuları vacibdir. Yaddaş və sinir hüceyrələrinin quruluşu üçün bu turşuların istehlakı yetəri qədər olmalıdır. Bu yağ turşuları əsasən balıqlarda olur. Bütün balıq növlərində Omega-3 var, hətta ən ucuz balıq olan kilkənin tərkibində da çox Omega-3 var. Həmçinin kətan və ciya toxumunda, soya bitkisində də Omega-3 yağı var.

B qrupu vitaminlər, xüsusilə B6, B9 və B12 sinir impulslarının ötürülməsi və əhvalın tənzimlənməsi üçün əhəmiyyətlidir. B1 – tiamin beyin hüceyrələrinin enerji ilə təmin olunmasına kömək edir, yaddaşı gücləndirir, diqqət və konsentrasiyanı artırır. Bu vitaminin əskikliyi yorğunluq, əsəbilik, qavrama zəifliyi yaradır. B2 - riboflavin enerji metabolizmasında və hüceyrələrin balansının qorunmasında rol oynayır. Bu vitamin beyni oksidləşdirici zədədən qoruyur və əskikliyi baş ağrısı, əsəbilik, diqqət dağınıqlığına səbəb olur.

B3-niasin neyrotransmitterlərin - sinir rabitə maddələrinin sintezində vacib rol oynayır. Bu vitamin zehni aydınlıq və əhval-ruhiyyənin sabitliyini qoruyur, əgər əskik olarsa konsentrasiya pozğunluğu, depressiyaya meyl yaradır. . B5 - pantoten turşusu hormon istehsalında və stressə adekvat cavab reaksiyalarında mühüm fayda verir. Bu vitamin həm də bizim stressə davamlılığımızı artırır. Beynimizdə əskikliyi yuxusuzluq, sinir sistemi zəifliyi yaradır. B6, yəni piridoksin serotonin, dopamin və melatonin kimi əhvalı və yuxunu tənzimləyən maddələrin istehsalında iştirak edən əhəmiyyətli vitamindir. Bizə faydası əhvalımızı stabil saxlaması, narahatlığımızı azaltması, yuxumuzu normallaşdırmasıdır.

B7 - biotin hüceyrə böyüməsi və enerji istehsalına dəstək verir. Bizim enerjimizə təsir edərək ney-



ronların fəaliyyətini gücləndirir. Əgər orqanizmimizdə B7 əskik olarsa depressiya, qıcıqlanma, unutqanlıq halları yaşayarıq.B9 - fol turşusu DNT sintezi və yeni hüceyrələrin yaranmasında rol oynayır. Fol turşusu beyin inkişafı, yaddaş və öyrənmə funksiyalarını təşviq edir. Depressiya, unutqanlıq, doğuşdan əvvəl dölün beyin inkişafı problemləri fol turşusu əskikliyi zamanı yaranır. B12 – kobalamin isə sinir hüceyrələrinin qoruyucu örtüyü olan miyelini normada saxlamağa kömək edir. Yaddaş, sinir sisteminin qorunması, enerji artımı kimi vacib funksiyalarda rolu böyükdür. Əgər əskikliyi yaranarsa ciddi yaddaş itkisi, əl-ayaqda keyimə, sinir zədələnməsi, ciddi hallarda demensiya yarada bilir.

D vitamini beyin neyronlarının sağlamlığı və depressiyadan qorumaq üçün vacibdir. Onu iki yolla qəbul etmək olur, günəış şüaları və qida vasitəsilə. Əgər gündəlik 15–30 dəqiqə günəş şüası dəriyə təmas edərsə D vitamini ehtiyacımızı ödəyərik. Qidalardan isə balıqların, kərə yağının, süd məhsullarının, göbələyin tərkibində var. Maqnezium, sink, dəmir bizim gündəlik konsentrasiya və enerji səviyyəsimizi normada saxlayır, ona görə də tərkibində maqnezium olan qidalardan – kətan toxumu, çiya toxumu, fındıq, qoz, badam, yulaf, qrabnaşaq, lobya və digər paxlalılar, yaşıl yarpaqlı tərəvəzlərdən qəbul etmək lazımdır.

Antioksidantlar da beyin üçün vacibdir, o hüceyrələri sərbəst radikallardan qoruyur , bu da Alzheimer və Parkinson kimi xəstəliklərin qarşısını almaqda rol oynayır. Meşə meyvələri -qaragilə, böyürtkən,qadağat, moruq, qoz, yaşıl çay kimi məhsullar beyni oksidativ stresdən qoruyur, yaşlanma prosesini yavaşladır. Həmçinin, beynin 75-80%-i sudan ibarət olduğu üçün kifayət qədər su içilmədikdə konsentrasiya azalır, baş ağrısı yaranır, yuxululuq və əsəbilik artır.

Dünya üzrə beyin xəstəlikləri statistik məlumatları ən son 2021-ci ilə aiddir, həmin il təxminən 3.4 milyard insan sinir sistemi xəstəliklərindən əziyyət çəkirdi — bu, dünya əhalisinin təxminən 43% ə bərabər idi. Bu xəstəliklər səbəbindən 11.1 milyon insan ölüb, 443 milyon insan isə əlil qalıb. İnsult dünya üzrə ən böyük beyin xəstəliyi və ölümlə nəticələnən səbəbdir.

Beyin xəstəliklərindən ikinci ən çox yayılanı miqrendir. Dünyada təxminən 3 milyarddan çox miqren xəstəsi var. 55 milyon insan demans xəstəliyindən əziyyət çəkir, 2021 də 1.8 milyon demans halı ölümlə nəticələnib. Proqnozlara görə 2050 dək 150 milyona qədər arta bilər. Dünyada 50 milyon insan epilepsiya xəstəsidir, 10 milyon insan Parkinsondan əziyyət çəkir, 210 milyondan çox insanda diabetik neyropatiya var, 7 milyon insanda fərqli skleroz növləri var.

***Lalə Mehralı***

# DİQQƏT: İkinci əl telefon alarkən bunlara diqqət edin!



***“İkinci əl mobil telefon alarkən bir neçə əsas məqama xüsusi diqqət yetirilməlidir. İlk növbədə, telefonun təhlükəsizliyi və hüquqi cəhətdən problemsiz olması ön planda dayanmalıdır”. Bu sözləri SİA-ya açıqlamasında İnformasiya Texnologiyaları Sahəsi üzrə Ekspert Fərrux Rəcəbli deyib.***



Fərrux Rəcəbli sözlərinə belə davam edib: “Mütləq şəkildə telefonun Azərbaycan Respublikasının mobil cihazların qeydiyyat sistemində (IMEI qeydiyyatında) qeydə alınıb-alınmadığı yoxlanılmalıdır. Hal-hazırda ölkə bazarında çoxsaylı qara bazar iştirakçıları fəaliyyət göstərir. Onlar xarici ölkələrdən – xüsusilə də bit bazarı adlandırılan ucuz elektronika bazarlarından – aşağı qiymətə telefonlar gətirərək ya fiziki mağazalara, ya da onlayn satış platformaları vasitəsilə satışa çıxarırlar. Bu tip telefonlar qeyri-qanuni yolla ölkəyə gətirilə və qeydiyyatsız ola bilər. Belə telefonlar bir müddət istifadə edildikdən sonra şəbəkədən ayrılır və istifadəsi mümkünsüz olur.

Mağazadan alınan cihazlar, bir qayda olaraq, bu məsələlərdə daha təhlükəsizdir. Lakin yenə də alıcı şəxs özü şəxsi yoxlama aparmalıdır. Xüsusilə onlayn və ya fərdi satış zamanı alınan telefonlar qeydiyyatsız və ya oğurluq ola bilər. Belə hallarda hüquqmühafizə orqanları IMEI kodu vasitəsilə istifadəçini müəyyənləşdirə bilər və alıcı məsuliyyətə cəlb oluna bilər. Bu səbəbdən ikinci əl telefon almaq istəyən şəxslər mütləq rəsmi mağazalara üstünlük verməlidirlər.

İkinci mühüm məsələ telefonun texniki vəziyyətidir. Telefonu almamışdan əvvəl bu suallara cavab tapmaq lazımdır:

• Telefonun korpusunda müdaxilə izləri varmı?

(Müdaxilə izləri varsa, bu, cihazın daha əvvəl təmir olunduğunu göstərə bilər.)

• Ekran dəyişdirilibmi, orijinaldırmı?

• Sim kart şəbəkəsi, Wi-Fi bağlantısı, səs sistemi, kamera və batareya vəziyyəti necədir?

Bu xüsusiyyətləri telefonun ayarlar bölməsindəki sistem statusundan və ya xüsusi proqram təminatları vasitəsilə yoxlamaq mümkündür. Android və iOS (Apple) sistemli telefonlar üçün xüsusi servis kodları var – həmin kodlar vasitəsilə cihazın texniki vəziyyəti ətraflı şəkildə yoxlanıla bilər. Kodlar və tətbiqlər barədə məlumatı internet üzərindən (məsələn, Google axtarış sistemi vasitəsilə) telefonun modeli üzrə tapmaq mümkündür.

Daha bir vacib məqam – zəmanət məsələsidir. Çalışın, telefonu elə bir yerdən alasınız ki, ən azı 3 aylıq zəmanət verilsin. Təəssüf ki, bəzi satıcılar bilir ki, cihaz yalnız 1-2 gün problemsiz işləyəcək və daha sonra texniki nasazlıq baş verəcək. Belə hallarda zəmanətsiz və ya cəmi bir neçə günlük zəmanət verilmiş telefon alıcı üçün ciddi maddi ziyana səbəb ola bilər. Mağazaların bəziləri zəmanət müddətinin bitdiyini əsas gətirərək məsuliyyətdən yayınırlar. İkinci əl telefon alarkən təhlükəsizlik, texniki vəziyyət və zəmanət kimi amillər əsas meyar kimi nəzərə alınmalıdır. Qeydiyyatsız, təmirdən çıxmış və zəmanətsiz telefonlar potensial risk daşıyır. Alıcı bu nüansları diqqətlə araşdırmalı və seçimində ehtiyatlı davranmalıdır”.

***Ayşən***


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Oturacağa keçirilən üzlük qəza zamanı təhlükə riskini artırır?

“Əvvəla qeyd etmək lazımdır ki, buradakı əsas məsələ avtomobil qəzalarının səbəblərinin kompleks xarakter daşımasıdır. Xüsusilə də istehsal sonrası nəqliyyat vasitələrinə edilən müdaxilələr – istər yaşla bağlı texniki dəyişikliklər, istərsə də istifadəçi tərəfindən quraşdırılmış əlavə avadanlıqlar – qəza riskini artıran ciddi amillərdən biridir”. Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat eksperti Aslan Əsədov deyib.



Ekspert mühüm məqamlardan danışdı

Aslan Əsədov sözlərinə belə davam edib: “Zavod istehsalı olan avtomobillərə sonradan əlavə qurğuların quraşdırılması, qeyri-standart şəkildə texniki təmir və ya “modernizasiya” məqsədilə aparılan dəyişikliklər nəqliyyat vasitəsinin ilkin təhlükəsizlik parametrlərini



poza bilər. Bu isə qəza anında nəqliyyat vasitəsinin özünü qoruma (sığortalama) qabiliyyətini zəiflədir. Digər sözlə, bu cür dəyişikliklər qəzanın qarşısının alınmasını çətinləşdirə və qəzanın nəticələrini daha ağır hala gətirə bilər. Bu baxımdan, avtomobil sahiblərinin istehsalçı tərəfindən müəyyənləşdirilmiş texniki göstəricilərə və təhlükəsizlik standartlarına riayət etməsi vacibdir. Əks halda, bu cür müdaxilələr təkcə fərdi sürücü və sərnişinlər üçün deyil, ümumilikdə yol hərəkəti iştirakçıları üçün də ciddi təhlükə yarada bilər. Artıq bu məsələlər KİV-də də geniş şəkildə müzakirə olunur və ictimai narahatlıq doğurur.

Digər tərəfdən, bu cür texniki dəyişikliklər avtomobilin sonrakı mərhələlərdə texniki baxışdan keçməsinə və ya hüquqi qeydiyyata alınmasına da maneə yarada bilər. Bütün bu hallar göstərir ki, qəza riskinin minimallaşdırılması üçün istehsal sonrası texniki dəyişikliklərə ciddi nəzarət edilməli, yalnız müvafiq səlahiyyətli qurumların icazəsi ilə həyata keçirilməlidir. Nəticə olaraq, avtomobillərdə qeyri-qanuni və ya standartdan kənar dəyişikliklərə yol verilməsi, nəinki texniki baxımdan düzgün deyil, həm də hüquqi və sosial baxımdan risklidir. Ona görə də nəqliyyat vasitələrinin təhlükəsizlik göstəriciləri hər zaman prioritet saxlanmalı, texniki müdaxilələr peşəkar səviyyədə və normativ tələblərə uyğun şəkildə həyata keçirilməlidir”.

***A. Vəli***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**